RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 48 (8641) ÇƏRŞƏNBƏ, 3 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin yaratdığı yeni reallıq

## Azərbaycan Ermənistanın işğal siyasətinə son qoymaqla bölgədə sabitliyi və təhlükəsizliyi möhkəmləndirdi

İkinci Qarabağ müharibəsinin nə vaxtsa baş verəcəyi qaçılmaz idi. Ona görə ki, danışıqlar prosesi heç bir nəticə vermirdi. Ermənistan imitasiya ilə məşğul idi, danışıqlar prosesində iştirak edən təşkilat və dövlətlər isə beynəlxalq hüququn Azərbaycanın tərəfində olmasına baxmayaraq, problemin həllinə laqeyd yanaşırdılar. Bu da nəticə etibarilə işğal siyasətinin dəstəklənməsi anlamına gətirib çıxarırdı.

### İlham Əliyev inkişaf strategiyası ilə tarixi şəraiti yetişdirdi

Ümumiyyətlə isə, 44 günlük müharibəyə qədər ayrı-ayrı siyasi mərkəzlərin mövqeyi, problemə yanaşmaları Azərbaycanın işğal faktı ilə barışmasına yönəlmişdi. Çünki Azərbaycan ərazilərinin zəbt edilməsinə, yüz minlərlə azərbaycanlının 30 ilə yaxın idi məcburi köçkün vəziyyətində yaşamasına olan laqeydlik, Dağlıq Qarabağın Azərbaycan əraziləri olduğunu təsbit edən beynəlxalq hüququn norma və prinsiplərinin nəzərə alınmaması, Ermənistana hərtərəfli siyasi dəstəyin göstərilməsi başqa cür düşünməkdən başqa yol qoymurdu.

Azərbaycanın işğal olunmuş kənd və şəhərlərinin adlarının dəyişdirilməsi, onlara eybəcər erməni adlarının qoyulması da göstərirdi ki, Ermənistan həmin əraziləri heç vaxt azad etmək niyyətində olmayıb. Həmin ərazilərin qeyri-qanuni məskunlaşdırılmasına, Ermənistanın ayrı-ayrı təxribatlarına beynəlxalq təşkilatların və dövlətlərin göz yumması işğala dəstək göstərilməsindən başqa bir şey deyildi.

Təbii ki, Azərbaycan bu vəziyyətlə barışa bilməzdi və barışmadı da. Prezident İlham Əliyev bütün xarici səfərlərində, beynəlxalq tədbirlərdəki çıxışlarında ilk növbədə diqqəti torpaqlarımızın işğal altında olmasına yönəldirdi. İlham Əliyev hər zaman deyirdi ki, danışıqlar nəticəsiz qalarsa, Azərbaycan güc yolu ilə torpaqlarını işğaldan azad edəcək. Azərbaycan xalqı əmin idi ki, günlərin birində ordumuz işğalçını döyüş meydanında darmadağın edəcək.

Əlbəttə, bunun üçün əlverişli tarixi şərait yetişməliydi. Bunun üçün zaman düzgün seçilməliydi. İlham Əliyev öz inkişaf siyasəti ilə həmin tarixi şəraiti yetişdirdi. Azərbaycanın yüksəlişi, ordumuzun qüdrətlənməsi ilə torpaqlarımızın azad olunmasının zamanı da gəldi və 44 günlük müharibədə İlham Əliyev özünün daha bir vədini inamla, qətiyyətlə və uğurla yerinə yetirdi.

Prezdent İlham Əliyev xalqa müraciətlərində, mətbuata müsahibələrində müharibənin səbəbləri barədə yerli və xarici ictimaiyyəti məlumatlandırıb. Fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Prezident İlham Əliyev bir daha bildirdi ki, otuz il davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan bu məsələni təkbaşına həll etdi: "Otuz il davam edən danışıqlar heç bir nəticə vermədi. Minsk qrupunun fəaliyyəti olsa da, nəticəsi sıfıra bərabər oldu. Son iki il ərzində faktiki olaraq Minsk qrupunun həmsədrləri özləri də bilmirdilər ki, nə işlə məşğul olsunlar. Çünki Ermənistan baş nazirinin yersiz və çox təhlükəli bəyanatları onların fəaliyyətini də faktiki olaraq iflic etmişdi, mənasız etmişdi. Əgər Ermənistan baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır və nöqtə", ondan sonra hansı proses ola bilər, hansı danışıqlardan söhbət gedə bilər? Bu, əslində, Minsk qrupunun həmsədrlərini də çox çətin vəziyyətə saldı. Çünki onlar da buna hər hansı bir reaksiya verməli idilər. Faktiki olaraq son iki il ərzində danışıqlar aparılmırdı. Yəni, Azərbaycan bu məsələni təkbaşına həll etdi".

### Üçtərəfli bəyanata qarşı çıxmaq Ermənistanın növbəti faciəsi olar

Azərbaycan artıq bölgədə yeni reallıq yaradıb. İlk növbədə bəzi beynəlxalq təşkilatların və dövlətlərin Ermənistanın işğal siyasətinə dəstək verən mövqelərinə tutarlı zərbə vuruldu. Azərbaycan göstərdi ki, torpaqlarının işğal altında qalması ilə heç vaxt razılaşa bilməz. Danışıqlarda imitasiya edən, zamanı uzatmaqla işğala daha güclü beynəlxalq dəstək almaq istəyən Emənistan güc yolu ilə Azərbaycan torpaqlarından qovuldu.

Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat Ermənistanın kapitulyasiyasının hüquqi-siyasi təsdiqi və bölgədə yaranmış yeni reallığın təcəssümüdür. Bu sənəd həm də bölgədəki sülhün və təhlükəsizliyin zəmanətidir. Bu sənədə imza atmaqla Ermənistan bir dövlət olaraq öz üzərinə öhdəliklər götürüb. Hakimiyyətdə hansı siyasi qüvvənin olmasına baxmayaraq, Ermənistan bu öhdəlikləri yerinə yetirmək məcburiyyətindədir.

Ermənistanda aylardır ki, mitinqlər keçirən müxalifət və keçmiş hərbi xunta tərəfdarları həm hakimiyyətə, həm də üçtərəfli bəyanatlara qarşı çıxırlar. Lakin bu sənədə qarşı çıxmaq Ermənistana ağır başa gələ bilər. Prezident İlham Əliyev mətbuat konfansında bəyanata qarşı çıxmaq istəyənlərə də xəbərdarlıq etdi. "Noyabrın 10-da imzalanmış bəyanat icra edilir və tam icra edilməlidir.

Ardı 3-cü səh.

# Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. 2020-ci il oktyabrın 30-dək "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2021-ci il*

# İlham Əliyevin yeni layihələri regionda sabitliyin qarantıdır

## Prezidentin müəyyənləşdirdiyi Milli Prioritetlərin sistemli şəkildə icrası Azərbaycanın hərtərəfli yüksəlişini təmin edəcək

"Dağlıq Qarabağ münaqişəsi sona çatıb. O, artıq tarixin bir hissəsinə çevrilib. İndi biz diqqəti qarşımızdakı məsələlərə cəmləşdirməliyik, ilk növbədə, əlbəttə ki, ərazilərin yenidən qurulmasına, bərpasına. Hər şey məhv olub. Biz dağıntıların miqyasını təsəvvürümüzə belə gətirə bilməzdik. Ağdamda, Füzulidə, azad edilmiş digər ərazilərdə, kəndlərdə, şəhərlərdə bir bina belə qalmayıb. Hər şey, tarixi abidələr dağıdılıb. Yenidənqurma işləri aparmaq üçün çoxlu tədbirlər görülməlidir. Əlbəttə, biz bu işə sadiqik, bunu etmək üçün bizim güclü iradəmiz, imkanlarımız var".

Bu fikirləri Prezident İlham Əliyev fevralın 23-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini videoformatda qəbul edərkən söyləyib.

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb. İslahatlarla yanaşı, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa işlərinə start verilib. Bütün bu məsələlər Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasında aydın şəkildə öz əksini tapıb. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılacaq beş milli prioritet müəyyənləşdirilib. Bütün prioritetlər, əlbəttə ki, Vətən müharibəsində ərazi bütövlüyünü təmin edən Azərbaycanın gələcək yüksəlişinə hədəflənib.

Ölkəmiz həm də region üçün gələcək qurmağa hazır olduğunu nümayiş etdirir və görülən işlər bir daha göstərir ki, Azərbaycan artıq bu prosesə start verib. Dövlət başçısı bu məsələyə toxunaraq vurğulayıb ki, Azərbaycan yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik, proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlayıb. Azərbaycan öz öhdəliklərinə sadiqdir və müharibədən sonra da çox konstruktiv yanaşma nümayiş etdirir. Bu reallıqlar uzunmüddətli olacaq.

Ardı 3-cü səh.

# Qarabağı cənnətə çevirməyə Azərbaycanın maliyyə resursları da, siyasi iradəsi də var

## Prezident İlham ƏLİYEV: "Planlaşdırdığımız məsələləri həll edəcəyik. Çünki yaxın tarix də göstərib, nəyi hədəfləmişiksə, ona da çatmışıq"

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Azərbaycan həqiqətlərini dünyaya bir daha bəyan etdi.

Dövlət başçısına ünvanlanan 50 sual cavablandırılarkən 30 ilə yaxın bir müddətdə torpaqlarımızı işğal altında saxlayan erməni faşizminə aid çox məqamlar yenidən açıqlandı. Şanlı qələbəmizdən söhbət getdi. Konfransın bütün məzmunundan qırmızı xətlə keçən əsas mövzulardan biri də təbii ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası və neçə illərdir məcburi köçkün həyatı sürən sakinlərinin oraya qaytarılması oldu .

Lakin başdan-başa viran qoyulmuş o yerlərdə insanlar yalnız köklü quruculuq işləri aparıldıqdan sonra yaşaya bilərlər. Çünki Prezidentimizin dediyi kimi: "Ərazilərin minalanması ilə bərabər, burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur. Praktiki olaraq bütün kəndlər dağıdılıb. Mən azad edilmiş ərazilərdə dəfələrlə olmuşam, maşınla yüzlərlə kilometr yol gedirsən və yalnız dağıdılmış kəndləri görürsən, heç yerdə bircə bina da yoxdur. Ağdamda bircə bina da yoxdur. Təkcə qismən dağıdılmış bir məscid qalıb, ondan da ermənilər atəşin təshih edilməsi üçün oriyentir və müşahidə məntəqəsi kimi istifadə ediblər, oradan baxırlarmış ki, Azərbaycan qoşunları orada hərəkət edir, yoxsa yox? Füzulidə bircə bina da yoxdur. Hətta bayraq sancmağa yer yox idi. Biz bayrağı bayraq dirəyindən asdıq. Cəbrayılda da eyni vəziyyətdir. Zəngilanda, Qubadlıda bir neçə ev qalıb, onlarda da qanunsuz məskunlaşdırma aparılmışdır".

Ona görə indi ərazilərin minalardan təmizlənməsi və bununla yanaşı, ziyanın qiymətləndirilməsi aparılır. Şəhərlərin və kəndlərin inkişafının baş planlarının tərtib edilməsinə dair tapşırıqlar verilib. Pilot layihələrə, o cümlədən "Ağıllı kənd" layihəsinə artıq başlanıb.

Ardı 3-cü səh.

# Bəşəriyyəti təhdid edən virus o zaman təslim olacaq ki...

## COVID-19 pandemiyasının sonunun tezliklə çatması həm də vətəndaş məsuliyyətindən, qaydalara əməl etməkdən asılıdır

Koronavirusun "dillər əzbəri" olması heç də ona sevgidən irəli gəlmir. Bəşəriyyəti fəlakətə sürükləyən, insanları fiziki, mənəvi cəhətdən sarsıdan, ölkələrin iqtisadiyyatını çökdürən bu "gözəgörünməz bəla", hətta qanlı-qadalı müharibənin gətirdiyi ağrı-acılar, ölüm-itimlər qədər qorxuncdur.

Doğrudur, bir il bundan öncə ölkəmizdə hələ ciddi şəkildə ayaq aça bilməyən, adı belə tibb elminə düz-əməlli məlum olmayan bu yoluxucu xəstəliyin sonradan epidemiya, hətta pandemiyaya çevrilmə təhlükəsi ortalığa çıxandan Azərbaycan ona qarşı mübarizənin ön sıralarında gedən dövlətlərdən biri oldu. Qabaqlayıcı tədbirlər istər yoluxma, istərsə ölüm hallarının kəskin surətdə artmasının qarşısını alan əsas vasitəyə çevrildi. Açığı, 44 günlük Vətən müharibəsində olduğu kimi, pandemiyanın da cilovlanmasında dövlət-xalq birliyi özünü göstərdi.

Ardı 4-cü səh.

# Ermənistanda xalq hərbi xuntadan üz döndərdi

## Yerevan meydan dərəbəyliyini yaşayır




Ermənistanda martın 1-də keçirilən mitinqlər ölkədə siyasi böhranın daha da dərinləşdiyini göstərir. 44 günlük Qarabağ müharibəsindən sonra Nikol Paşinyanın opponentləri xalqın baş nazirdən üz döndərəcəyini gözləsə də, indi tamam əks vəziyyət müşahidə edilir. İnsanların müxalifətə və hərbi xuntaya dəstək verməməsi baş nazirin mövqelərini bir qədər möhkəmləndirib.

### Müxalifət baş nazirdən sübut tələb edir

Baş nazirin Yerevanın Respublika meydanında keçirilən mitinqdəki çıxışları hərbi xunta təmsilçilərinin etirazına səbəb olub. Belə ki, mitinqdə çıxış edən Nikol Paşinyan ordunun baş qərargah rəisi O.Qasparyanı Ermənistanın üçüncü prezidenti S.Sarkisyanın təzyiqi altında baş nazirin istefasını açıq şəkildə müdafiə etməkdə və birbaşa rəhbərinin tələbinə tabe olmaq əvəzinə eks-prezidentin əmrlərini yerinə yetirməkdə günahlandırıb. O, Qasparyanın hərəkətlərini xainlik adlandırıb və onun istefa verməli olduğunu bildirib.

Ardı 3-cü səh.

# *Əli HÜSEYNLİ:* "Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlıdır"

Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlıdır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında 4 saatdan artıq müddətdə canlı yayımla dünyanın 35 ölkəsini təmsil edən 50-dən çox jurnalistin suallarını fasiləsiz cavablandırdı.

Məhz Xocalı faciəsi qurbanlarının anım günündə soyqırımı həqiqətlərinin dövlət başçısı tərəfindən dünya ictimaiyyətinin diqqətinə çatdırılması, erməni faşizminin təkzibolunmaz faktlarla ifşasının nüfuzlu KİV-in manşet xəbərlərində tirajlanması informasiya cəbhəsində növbəti böyük uğur olaraq, ilk növbədə, beynəlxalq ictimaiyyətin Azərbaycana artan diqqətindən xəbər verir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Əli Hüseynli deyib.

Deputat bildirib ki, media nümayəndələrinin Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərdə Azərbaycana vurduğu ziyan və bu cinayətə görə cəza perspektivləri barədə sualları xüsusi maraq doğurur.

Bildiyiniz kimi, erməni varvarları zəbt etdikləri Qarabağ torpaqlarını viran qoyub, bütün infrastrukturu məhv edib, evləri, binaları talayaraq yerlə yeksan etmiş, xalqımızın tarixi, mədəni və mənəvi irsinə ağır zərbə vurublar. 100 min hektar kənd təsərrüfatı təyinatlı münbit torpaqlar, 54 min hektar ərazidə meşə fondu məhv edilib, bölgə ekoloji fəlakət həddinə çatdırılıb. Bu vandallıq hətta 10 noyabr üçtərəfli bəyanatın qəbul olunmasından sonra da davam etmişdir. Vurulmuş ziyanın həcmi 100 milyardlarla ölçülür.

Görünən odur ki, başı daxili çəkişmələrə qarışmış məğlub Ermənistan hakimiyyəti bu hərbi cinayətlərin dairəsini hələlik tam təsəvvür edə bilmir. Amma bütün əvvəlki oxşar hərbi cinayətlərin araşdırılması göstərir ki, söhbət böyük məbləğdə təzminat tələbindən gedir. Artıq dünyanın aparıcı media qurumları da Ermənistan tərəfindən barbarcasına dağıdılan şəhərlərimizi Xirosima ilə müqayisə edirlər, onları "ruhlar şəhəri" adlandırırlar. Bu, məhz hərbi cinayətin miqyasını göstərən müqayisələrdəndir. Mətbuat konfransının gedişində Prezident İlham Əliyev bu məsələyə münasibətini açıqlayaraq söylədi: "Bütün dünya bunu gördü. İkinci Qarabağ müharibəsinin əhəmiyyəti təkcə ərazilərimizin, ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmır. Bütün dünya erməni faşizminin əsl real sifətini gördü. Biz, əlbəttə ki, bütün dəymiş ziyanı hesablamalıyıq və hesablayırıq. Mənim göstərişimlə indi Azərbaycanın müvafiq qurumları video, foto çəkilişlər aparırlar, dron çəkilişləri aparılır. Dəymiş bütün ziyan hesablanacaq. Dağılmış bütün evlərin protokollaşdırılması işlərinə start verilib ki, vətəndaşlar fərdi qaydada dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrə, ilk növbədə, Azərbaycan məhkəmələrinə və sonra beynəlxalq məhkəmələrə müraciət etsinlər".

Eyni zamanda, həmin ərazilərdə iqtisadi aktivliyin dayanması ciddi ziyan kimi hesablanmalıdır. Bu baxımdan, Ermənistanın işğal altındakı ərazilərimizə vurduğu ziyan, sadəcə, onun birbaşa etdiyi dağıntılar ilə məhdudlaşmayacaq. Həmin ərazilərimizin böyük iqtisadi potensialını nəzərə aldıqda ümumi daxili məhsula dəyən ziyanın da ayrıca hesablanması və təzminat məbləğinə daxil edilməsinə ehtiyac yaranır. Artıq bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var.

Deputat bildirib ki, Azərbaycan Prezidentinin dediyi kimi, bununla bağlı işlər bir neçə istiqamətdə və mərhələdə reallaşacaq: "İkinci mərhələdə, - artıq bu sahədə də işlər başlanıb, müvafiq sənədlər imzalanıb, - buna oxşar münaqişələrdə dəymiş ziyanın hesablanması üçün təcrübəsi olan beynəlxalq şirkətlərlə də sənədlər imzalanıb, onlar yaxın gələcəkdə Azərbaycana gələcəklər. Əlbəttə ki, onlar özləri tədqiqatlar aparacaqlar, ancaq biz də onları lazım olan materiallarla təmin edəcəyik. Bu beynəlxalq şirkətlərin bu sahədə təcrübəsi var və dəymiş ziyanın ödənilməsi, təzminatın ödənilməsi üçün, əlbəttə ki, beynəlxalq məhkəmələrdə iddialar qaldırılacaq".

Təbii resurslarımızı icazəsiz istismar edən xarici şirkətlərin də məsuliyyətə cəlb edilməsi gündəlikdədir. Bu, beynəlxalq cinayətdir. Prezident İlham Əliyev açıqladı ki, artıq bu cinayəti törətmiş bəzi qurumların məsuliyyətə cəlb edilməsi üçün ilkin hazırlıq işləri aparılıb: "Mən bu məsələ ilə bağlı bir-iki dəfə öz sözümü demişəm, bir daha demək istəyirəm ki, ya bu şirkətlər bizə təzminat ödəyəcəklər, kompensasiya verəcəklər, ya da ki, məhkəməyə gedəcəklər. Məhkəməyə getdikləri təqdirdə, tam əminəm ki, məhkəmədə onlar uduzacaqlar, eyni zamanda, dünya miqyasında biabır olacaqlar. Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır. Bu şirkətlərin beynəlxalq reputasiyasına da çox ciddi ziyan dəyəcək".

Bu cinayət əməllərinin mühakiməsi ilə bağlı perspektivlərə gəldikdə, ölkə rəhbəri dünya ictimaiyyətinə və beynəlxalq hüquq institutlarına çağırış edərək onları bu məsələdə ədalətli və obyektiv olmağa dəvət etdi: "İndi beynəlxalq məhkəmələrdə buna nə dərəcədə reaksiya veriləcək? O, işin ikinci məsələsidir. Burada, əlbəttə ki, əsas məsələ obyektivlikdir. Əgər obyektiv yanaşma olsa, əlbəttə ki, onlar bu təzminatı ödəməli olacaqlar. Biz, eyni zamanda, beynəlxalq praktikaya da nəzər saldıq. Xarici İşlər Nazirliyinə tapşırıq verildi və artıq bu günlərdə mənə məlumat verildi, presedentlər necə olub, bu presedentlər var. O qədər də çox deyil, amma var. Burada, əlbəttə, hər bir presedent bizim tərəfimizdən təhlil edilməlidir ki, bunun təməlində nələr dayanır? Obyektivlik, yoxsa ki, siyasi sifariş? Çünki sirr deyil ki, beynəlxalq məhkəmə sistemi də siyasi təzyiqdən azad deyil və bəzi hallarda siyasi sifarişlər də yerinə yetirilir. Ona görə hər şey bundan asılı olacaq. Hər halda, biz öz üzərimizə düşən missiyanı yerinə yetiririk və yaxın zamanlarda dolğun hesabat hazırlanacaqdır".

Prezident İlham Əliyevin hələ ötən il noyabrın 6-da imzaladığı "Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncama uyğun olaraq Dövlət Komissiyası və müxtəlif regionlar üzrə yaradılmış 9 işçi qrupu bu istiqamətdə fəaliyyətini davam etdirir.

Digər tərəfdən, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən müvafiq beynəlxalq konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır. 1998-ci il aprelin 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilib. Bu qanun tarix və mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Beləliklə, həm milli qanunvericilik səviyyəsində, həm də beynəlxalq hüquq normaları baxımından yetərincə imkanların mövcudluğu təzminatla bağlı məsələlərin həlli prosesində Azərbaycan tərəfinin nikbinliyi artıran ən vacib amildir.

# Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Beynəlxalq Qoşulmama Hərəkatı Modeli Simulyasiya Məşğələsi keçirilir




Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına (QH) sədrliyi çərçivəsində marın 2-5-də virtual formatda Beynəlxalq Qoşulmama Hərəkatı Modeli Simulyasiya Məşğələsi keçirilir.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

QH tarixində ilk dəfə baş tutacaq bu tədbirdə iştirak üçün QH üzv dövlətlərindən yüzlərlə gənc müraciət edib və rəqabətli seçim prosesi nəticəsində 39 QH üzv dövlətini təmsil edən 60 gənc məşğələdə iştirak hüququ qazanıb.

İştirakçılar QH üzv dövlətlərinin yüksəkvəzifəli rəsmilərinin rollarını canlandırmaqla COVID-19 pandemiyasından sonrakı dövr üçün Qoşulmama Hərəkatına üzv dövlətlərin tövsiyələrini hazırlayacaqlar.

Tədbirin açılış mərasimində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və BMT Baş katibinin gənclər üzrə xüsusi elçisi Cayatma Vikramanayake çıxış ediblər.

Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi adından çıxış edən xarici işlər naziri Ceyhun Bayramov iştirakçılara COVID-19-a qarşı mübarizədə Azərbaycan Respublikasının ölkə başçısı adından QH sədri qismində irəli sürülmüş təşəbbüslər barədə məlumat verib. Nazir eyni zamanda COVID-19-a qarşı vaksinlərin pandemiyanın sona çatması ilə bağlı müəyyən ümidlər yaratdığını, lakin vaksinlərin qlobal miqyasda qeyri-bərabər və ədalətsiz bölgüsünün bu istiqamətdə əsas əngəllərdən biri olduğunu vurğulayıb. Gənclərin postpandemiya bərpa dövrü ilə bağlı öz yanaşmalarını sərgiləmələrinin əhəmiyyətindən bəhs edən nazir hazırkı tədbirin bu istiqamətdə olduqca faydalı olacağını bildirib.

BMT Baş katibinin elçisi isə öz çıxışında Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə oynadığı rola xüsusi diqqət çəkərək pandemiyanın BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin icrasına ciddi əngəllər törətdiyini və gənclərin pandemiyadan sonrakı reabilitasiya dövründə oynayacağı rolun əhəmiyyətini vurğulayıb. Bu xüsusda BMT nümayəndəsi BMT Baş katibinin təşəbbüsü ilə irəli sürülmüş BMT-nin Gənclər siyasəti üzrə 2030-cu il Strategiyasından bəhs edib. Sonda BMT elçisi simulyasiya məşğələsinin iştirakçılarına uğurlar arzu edərək simulyasiyada iştirak edən gənclərlə tədbirdən sonra da işləməyə hazır olduğunu bildirib.

Məşğələnin 5 marta qədər davam edəcək növbəti hissələrində iştirakçıların regional bölgü (Latın Amerikası, Asiya və Afrika/Avropa) əsasında qrup müzakirələrinin və bütün iştirakçıların iştirakı ilə keçiriləcək plenar iclaslarının baş tutması və sonda simulyasiyanın yekun sənədinin razılaşdırılıb qəbul edilməsi gözlənilir.

# Milli Məclisdə Vətən müharibəsi şəhidinin ailə üzvləri, müharibə iştirakçıları və idmançılar ilə görüş olub

Martın 2-də Milli Məclisin Gənclər və idman komitəsində şəhid Xudayar Yusifzadənin anası, bir qrup Vətən müharibəsi qəhrəmanı, idmançı və fəal gənclərlə xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq növbəti görüş keçirilib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun göstərdiyi şücaətdən danışaraq qüdrətli Silahlı Qüvvələrimizin həyata keçirdiyi hərbi əməliyyatla ölkəmizin tarixində yeni səhifə açıldığını bildirib. Qeyd edilib ki, ölkəmiz dəfələrlə münaqişənin dinc yolla və beynəlxalq hüququn tələblərinə uyğun olaraq həlli istiqamətində addımlar atmasına baxmayaraq, Ermənistan rəhbərliyinin yürütdüyü siyasət münaqişənin sülh yolu ilə həllini mümkünsüz etdi. Bu haqq müharibəmizdə hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz borclarını şərəflə yerinə yetirdilər. İgidlərimizin qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir gəncimiz üçün örnək olmalıdır.

Diqqətə çatdırılıb ki, bu müharibə ordumuzun gücünü dünyaya göstərməklə yanaşı, Ermənistanın tənəzzül prosesini də sürətləndirib. Çünki müharibədəki biabırçı məğlubiyyətdən sonra Ermənistanın uzun müddət özünə gəlməsi qeyri-mümkündür.

Söhbət zamanı qeyd olunub ki, hazırda azad olunmuş ərazilərin bərpası ilə yanaşı, şəhid ailələri və qazilərin problemlərinin həlli də dövlətin diqqət mərkəzindədir. Bugünə qədər bir çox şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Şəhid və qazi ailələrinin qayğılarının həlli istiqamətində hər birimizin səfərbər olması bizim mənəvi borcumuzdur.

Görüşdə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyi ifadə olunub, şəhid Xudayar Yusifzadənin anasının timsalında bütün şəhid ailələrinə minnətdarlıq bildirilib.

Sonda Vətən müharibəsinin iştirakçılarına, idmançılara və fəal gənclərin bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# Azərbaycanın mədəniyyət naziri Türkiyənin xarici işlər naziri ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasında səfərdədir.




Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində nazir Anar Kərimovun Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə Ankarada görüşü keçirilib.

Martın 2-də keçirilən görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsindən məmnunluq ifadə edilib. Ölkələrimizin həyata keçirdikləri birgə layihələrin əhəmiyyəti vurğulanıb. Dövlət rəsmilərinin qarşılıqlı səfərlərinin iki ölkə arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirilib.

Söhbət zamanı Türkiyə-Azərbaycan birliyinin təcəssümü olan tarixi Zəfərdən, 44 günlük Vətən müharibəsində qardaş ölkənin göstərdiyi böyük dəstəkdən söz açılıb.

Görüşdə ikitərəfli münasibətlər, mədəniyyət sahəsində inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əməkdaşlıq inkişaf edir

Martın 2-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Türkiyənin Azərbaycanda fəaliyyət göstərən Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) rəhbərliyi ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qonaqları salamlayan vitse-spiker bildirib ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlər Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın münasibətləri fonunda uğurla inkişaf edir.

Bildirilib ki, ölkələrimiz ortaq tarixə malik, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" olan iki qardaş dövlətdir. Ölkəmizin apardığı haqq savaşında Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyi Azərbaycan xalqı hər zaman xatırlayacaq.

Qeyd olunub ki, qələbədən sonra qarşımızda dayanan əsas məsələ Qarabağın bərpa edilməsidir. Hazırda bu sahədə ölkə rəhbərliyinin göstərişinə əsasən genişmiqyaslı işlər görülməkdədir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev çıxışlarında Qarabağın bərpası zamanı görüləcək işlərə Türkiyə şirkətlərinin də cəlb edilməsinin vacibliyini vurğulayıb. Ölkəmiz üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətə başlayıblar.

Görüşdə qardaş Türkiyə ilə iqtisadi, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlıqdan söhbət açılıb, bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyindən danışılıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin nümayəndələri iki ölkənin ortaq dəyərləri bölüşdüyünü, bundan sonra da daim bir-birinə dəstək vermələrinin vacibliyini qeyd ediblər. Qonaqlar qüdrətli Azərbaycan Ordusunun Ermənistan ordusunu məğlubiyyətə uğradaraq qazandığı tarixi qələbədən, ərazilərimizin işğaldan azad olunmasından məmnunluqlarını ifadə ediblər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Energetika sahəsində Azərbaycan-Almaniya əlaqələrinin inkişaf perspektivləri müzakirə edilib

Energetika sahəsində Azərbaycan-Almaniya əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, energetika naziri Pərviz Şahbazov Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Volfqanq Maniqi qəbul edib. Görüşdə energetika sahəsində ikitərəfli münasibətlərin mövcud səviyyəsi və inkişaf perspektivləri istiqamətində müzakirələr aparılıb.

Nazir Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonasının yaradılması istiqamətində görülən işlər haqqında məlumat verib.

Səfir bərpaolunan enerji sahəsində Almaniya təcrübəsi haqqında danışıb, həmçinin cari il martın 16-17-də keçirilməsi planlaşdırılan "Berlin Energy Transition Dialogue 2021" beynəlxalq konfransına dəvət məktubunu təqdim edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib

Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib.

AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, siyahıda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından martın 2-dək dəfn edilən 2881 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 28 nəfərin fotoşəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında yenilənmiş məlumatlar yer alır.

Qeyd edək ki, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

**Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı**

**https://mod.gov.az//images/pdf/0c337e5d5d01e5aae1ec5c5cd052ea54.pdf**

# Qarabağı cənnətə çevirməyə Azərbaycanın maliyyə resursları da, siyasi iradəsi də var

**Prezident İlham ƏLİYEV:** “Planlaşdırdığımız məsələləri həll edəcəyik. Çünki yaxın tarix göstərib, nəyi hədəfləmişiksə, ona da çatmışıq”



*Əvvəli 1-ci səh.*

Bu layihə Zəngilan rayonunun üç kəndində - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində həyata keçiriləcək. Cari ilin sonuna qədər layihənin başa çatması gözlənilir. Orada bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və sonra təqribən 1000-ə yaxın insan yerləşəcək. Belə pilot layihələr çox ola bilər, indi onlarınn üzərində iş gedir.

Böyük şəhərlərin baş planları tərtib edilməlidir. Məsələn, Ağdam şəhərində işğaldan əvvəl 40 minə yaxın insan yaşayırdı. İndi əhalinin sayı, əlbəttə, artıb. Odur ki, 50 minlik, bəlkə də 70 minlik bir şəhər salınmalıdır. Təkcə yaşayış evləri deyil, məktəblər, xəstəxanalar inşa edilməlidir, bütün infrastruktur yaradılmalıdır. Bu işlər işğaldan azad olunmuş bütün bölgələri əhatə etməlidir.

Füzulidə hava limanının tikintisinə başlanıb. Ərazinin minalardan təmizlənməsi ilə bağlı məsələlər operativ surətdə həll olunur. Bu, beynəlxalq hava limanı olacaq. Onun uçuş-enmə zolaqları ən ağır yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək. İşlər plan üzrə getsə, aeroport bu il payızın əvvəlində istifadəyə veriləcək. Hava limanının hazır olması həm ərazilərin bərpası üçün xaricdən alacağımız yüklərin tez çatdırılmasına, həm də qonşu dövlətlərin vətəndaşlarının Şuşa şəhərinə rahat gedib-gəlməsinə imkan verəcək.

Bununla eyni vaxtda Şuşa şəhərinə iki avtomobil yolu çəkilir. Onlardan birinə Prezidentimiz “Zəfər yolu” adını verib. Çünki Azərbaycanın xüsusi təyinatlı qoşunları Şuşa şəhərinə məhz həmin yolla meşələrdən və vadilərdən keçərək gediblər. Nisbətən aran ərazidən keçən digər yol da hava limanından birbaşa gediş-gəlişi təmin edəcək. Qarabağın mühüm logistika mərkəzinə çevriləcəyindən burada aeroport tikmək planları təkcə Füzuli ilə məhdudlaşmır.

Eləcə də Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin ölkəmizi Türkiyə ilə və eyni zamanda Rusiyanı Türkiyə ilə birləşdirən dəhliz açılması barədə olan böyük planlar reallaşacaq.

Bu il ərazilərin bərpası üzrə kifayət qədər geniş xüsusi investisiya proqramı təsdiq edilib. Bağlanmış müqavilələr əsasında ilk ödənişlərin həyata keçirilməsinə başlanır.

Həyat göstərir ki, müsbət meyillər üstünlük təşkil edəndə hər bir layihə özündən sonra digər layihəni də gətirib çıxarır. Prezident enerji sektorunda indiyədək gerçəkləşən layihələrimizi misal gətirdi: “Biz birinci addımı atanda bəlkə də təsəvvür etmirdik ki, bu gün nə qədər böyük layihələr icra edəcəyik. Birinci neft kəməri - Azərbaycanı, Xəzər dənizini Qara dənizlə birləşdirən, 99-cu ildə istismara verilən Bakı-Supsa kəməri görün nəyə gətirib çıxardı. Ondan sonra neçə layihə icra edildi. Sərmayə qoyuluşu, yeni kəşfiyyatlar, eyni zamanda “Cənub qaz dəhlizi”. Bu layihənin icrası ilə bağlı olan məsələlərdə artıq 7 ölkə birləşib və indi bu, özlüyündə yeni bir əməkdaşlıq formatı yaradır. Eyni mənzərəni biz burada da görə bilərik. Ancaq bir şərtlə ki, burada hər hansı gizli məqamlar, fikirlər olmasın, səmimiyyət, qarşılıqlı inam və maraqların bölgüsü olsun”.

İşğaldan azad edilmiş ərazilərdə indi artıq kənd təsərrüfatı fəaliyyətinə də başlanıb, 7 min hektardan çox ərazidə payızlıq buğda əkilib. Bunun üçün əvvəlcə ərazi minalardan təmizlənib. Bu sahədə də Azərbaycan geniş beynəlxalq əməkdaşlığa hazırdır və müxtəlif şirkətlərdən çoxlu təkliflər daxil olur. Müəyyən iş növləri barədə müxtəlif ölkələrdən sifarişlər alınır. Bunlar şəhərlərin planlaşdırılması, obyektlərin, o cümlədən infrastruktur obyektlərinin, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlıdır.

Postmüharibə dövrü həqiqətən yeni perspektivlər açır. Əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin açılması üçün nadir imkanlar yaranır. Prezident İlham Əliyev müharibə başa çatdığına görə əcnəbi investorların Azərbaycana daha fəal şəkildə sərmayə qoyacaqlarına əmin olduğunu ifadə etdi. Hələ müharibədən əvvəl iki iri beynəlxalq şirkətin ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırması barədə müqavilələr imzalandığını və azad edilmiş ərazilərdə də bunun üçün yaxşı imkanlar olduğunu xatırladaraq dedi: “Kəlbəcər-Laçın zonasında külək stansiyaları, çünki orada çox güclü küləklər olur, Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları, çünki orada günəş şüalarının il ərzində miqdarı da çox böyükdür və əgər belə demək olarsa, günəş şüalarının keyfiyyəti də buna imkan verir. Beləliklə, bu gün Azərbaycanın müvafiq strukturlarına əcnəbi tərəfdaşlarla bu məsələlər üzərində işləmək tapşırığı verilib. Yəni bu, çox böyük perspektivə malikdir. Üstəlik, dediyim kimi, biz artıq Qarabağı “yaşıl enerji” zonası elan etmişik və bunun üçün, ilk növbədə, investorları gözləyirik”.

Prezident həmçinin bütün işlərə dost ölkələrdən olan şirkətlərin cəlb edəcəyini bildirdi. Belə ki, Türkiyədən olan şirkətlər artıq müxtəlif layihələrdə yer alıblar. Strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətdədirlər. Onlar eyni zamanda Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yolda da işləyirlər. Türkiyə şirkətlərinin buradakı fəaliyyəti üçün yeni imkanlar yaranacaq. Çünki inşaatda, infrastruktur işlərində və digər sahələrdə böyük təcrübələri var.

İran şirkətləri də dağıdılmış ərazilərdə yenidənqurma işlərində iştirak etməkdə maraqlıdırlar. Xudafərin su anbarının birgə istifadəsi müzakirə edilib. Elektrik stansiyalarının inşasına dair İran tərəfi ilə razılıq əldə olunub. Artıq Xudafərin və Qız qalası elektrik stansiyalarının tikintisi ilə bağlı büdcə ayrılıb. Onların ümumi istehsal gücü 280 meqavat olacaq və bu həcm iki ölkə arasında bölüşdürüləcək.

Eləcə də Rusiya və Azərbaycan dost ölkələr olduğuna görə təbii ki, işlərə Rusiya şirkətləri də cəlb ediləcək.

Bir sözlə, görüləcək işlərin həcmi böyükdür. İşğaldan 10 min kvadratkilometrdən çox ərazi azad edilib. Odur ki, Azərbaycanın bütün dostları üçün kifayət qədər iş olacaq.

Bəs insanlar öz doğma torpaqlarına, yurd-yuvalarına nə vaxt qayıdacaqlar?

“Bizim yarışacağımız əsas tərəf müqabili zamandır” dedi Prezidentimiz. Aydındır ki, dövlət başçısı maksimum qısa müddət ərzində o insanların yurd həsrətinə son qoyaraq onları mərhələli şəkildə öz kəndlərinə, şəhərlərinə qaytarmaqda qərarlıdır. Həm də bu, orada yaşayış üçün ən yaxşı şərait yaradılandan sonra həyata keçiriləcək: “Onlar layiqli yaşamağa və müasir dünyanın bütün nemətlərindən istifadə etməyə layiqdirlər. Bu əraziləri bərpa etmək üçün bizim siyasi iradəmiz də, maliyyə resurslarımız da var və biz bunu edəcəyik”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# İlham Əliyevin yaratdığı yeni reallıq

**Azərbaycan Ermənistanın işğal siyasətinə son qoymaqla bölgədə sabitliyi və təhlükəsizliyi möhkəmləndirdi**

*Əvvəli 1-ci səh.*

O bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış bəyanat icra ediləcəkdir. Əks-təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Yəni Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq”, - deyə İlham Əliyev bildirdi.

Maraqlıdır ki, revanşistlər üçtərəfli bəyanata qarşı çıxmağın alternativi barədə danışmaqdan qaçırlar. Çünki yaxşı anlayırlar ki, bu sənədə qarşı çıxmaq Ermənistan üçün daha böyük fəlakətlə nəticələnə bilər. Bəyanata qarşı çıxmaqda əsas məqsədləri sadəcə Paşinyanı baş nazirlikdən uzaqlaşdırmaqdır. Lakin son günlərdə Ermənistanda baş verənlərdən bir daha aydın oldu ki, erməni xalqı müxalifətə və hərbi xuntaya qarşıdır.

Beləliklə, Prezident İlham Əliyev Cənubi Qafqazda yeni reallığın müəllifi oldu. 44 günlük müharibə ilə Ermənistanın işğal siyasətinə son qoyuldu. Bu savaşdakı tarixi zəfərin nəticəsi olaraq Azərbaycan bölgədə sabitliyi və təhlükəsizliyi möhkəmləndirdi, mövqelərini daha da gücləndirdi.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# İlham Əliyevin yeni layihələri regionda sabitliyin qarantıdır

Prezidentin müəyyənləşdirdiyi milli prioritetlərin sistemli şəkildə icrası Azərbaycanın hərtərəfli yüksəlişini təmin edəcək

*Əvvəli 1-ci səh.*

## Yeni layihələr sistemli şəkildə reallaşdırılacaq

Bu gün mühüm hədəflərdən biri işğaldan azad edilmiş torpaqlarımızda bərpa, quruculuq işlərinin sistemli şəkildə reallaşması və yüksəliş dövrünün başlanmasıdır. Burada reallıq böyük qayıdışa uyğun proqramların hazırlanması və icrasıdır. Bu hədəf üzrə işlər tamamilə yeni reallıqlar əsasında Azərbaycanın inkişafında xüsusi mərhələyə qədəm qoymaq deməkdir.

Çünki 30 ilə yaxın müddətdə işğal altında qalmış ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda beynəlxalq və regional əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin fəaliyyətə başlaması həm Azərbaycan iqtisadiyyatına əlavə güc qatacaq, həm də bölgədə qarşılıqlı faydalı əməkdaşlıq mühitinin formalaşmasını şərtləndirəcək.

Azərbaycan dövlətinin əsas hədəflərindən biri də işğaldan azad olunmuş ərazilərimizdə əhalinin məskunlaşma səviyyəsini işğala qədərki səviyyəyə çatdırmaqdır. Buna nail olmaq üçün isə bütün imkanlar, o cümlədən iqtisadi potensial və insan resursları mövcuddur.

Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşdırılması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi Azərbaycanın region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyənləşdirilməsində rolunu daha da gücləndirəcək.

## Yeni dəmir yol xətləri, su elektrik stansiyaları, “ağıllı kənd” layihələri…

İşğaldan azad edilmiş ərazilərimizdə reallığa çevrilməkdə olan layihələrə gəlincə, fevralın 14-də Prezidentin Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çox aspektlərdən xüsusi önəm daşıdı. Səfər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin qoyulması həm siyasi, iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edirdi.

Prezident bu səfər zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu, 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışında iştirak etdi və stansiyanı işə saldı. Həmçinin “ağıllı kənd” layihəsinin necə reallaşacağı nümayiş etdirildi.

Əlbəttə ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin çəkilməsi mühüm strateji əhəmiyyət daşıyır. Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən layihənin başlanğıcı kimi qiymətləndirilməli olan bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Digər vacib məsələ isə odur ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsi yaranacaq.

Laçındakı “Güləbird” Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisə idi. Çünki bu, işğaldan azad olunan rayonlarda İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk layihə idi. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Mərasimdə çıxış edən Prezident qətiyyətlə vurğuladı ki, Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyaları bərpa ediləcək. İşğaldan azad olunan ərazilərdə ekoloji cəhətdən təmiz, bərpaolunan enerji növləri yaradılaraq torpaqlar “yaşıl enerji” zonasına çevriləcək.

Birinci “ağıllı kənd” layihəsi isə Zəngilan rayonunda icra ediləcək. Rayonun Üçüncü Ağalı kəndindən başlayacaq “ağıllı kənd” layihəsinin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, İlham Əliyev verdiyi vədləri daim uğurla gerçəkləşdirən qətiyyətli liderdir.

Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistanda xalq hərbi xuntadan üz döndərdi

Yerevan meydan dərəbəyliyini yaşayır

*Əvvəli 1-ci səh.*

Ermənistanın müxalif “İşıqlı Ermənistan” partiyasının sədri Edmon Marukyan isə Nikol Paşinyandan mitinqdə dedikləri haqqında sübut tələb edib. O, baş nazirdən bu barədə dəlillər göstərməsini söyləyib. “Baş nazir deyir ki, Qasparyan göstərişləri Sarkisyandan alır. Qoy Paşinyan dediklərini sübut etsin, dəlil göstərsin, ya da danışmasın”, - deyə partiya sədri bəyan edib.

Ermənistanın silahlı qüvvələri isə bəyanat yayaraq Nikol Paşinyanı əsassız ittihamlara son qoymağa çağırıb.

## S.Sarkisyanla qiyamçı general arasında telefon danışığı olub

O.Qasparyanın qızı da Nikol Paşinyanın atasına qarşı ittihamlarına reaksiya verib. O, “Facebook”dakı səhifəsində yazıb ki, bir gün fərarilik edən biri hakiminiz olarsa, təəccüblənməyin: “Bir qrup fərarilik edənlərin vətənin müdafiəçilərindən danışarkən onları xain adlandırması gülüncdür. Yeri gəlmişkən, bu cür insanların intonasiyası birbaşa cəbhə xəttindən uzaqlaşma dərəcəsindən asılıdır. Güldüm, xeyli güldüm”.

Bu arada Ermənistan Milli Təhlükəsizlik Xidməti O.Qasparyanla keçmiş prezident S.Sarkisyanın telefon danışığını dinləyərək, lentə alıb. Ermənistanın Vatikandakı keçmiş səfiri, S.Sarkisyanın kürəkəni Mikael Minasyan sosial media hesabında yazdığı statusunda telefon danışığının bir neçə ay öncəyə aid olduğunu bildirib. “Paşinyan mitinqdə Serj Sarkisyan və Onik Qasparyan arasında telefon danışığı haqda bir anons verdi. Bir neçə ay öncə Ermənistan MTX Sarkisyanla Qasparyanın telefon danışığını izləyərək lentə aldı. MTX rəhbəri Abazyan Nikol və Annanın şəxsi xidmətində olduğundan dərhal bu səs yazısını onlara ötürdü. Bunun tezliklə ictimaiyyətə açıqlanacağı bildirildi. Bu telefon danışığında nələrin müzakirə olunduğu haqda xəbərim yoxdur, amma MTX mənbələri danışığın son hadisələrlə heç bir əlaqəsi olmadığını bildirirlər”, - deyə Sarkisyanın kürəkəni qeyd edib.







Ümumiyyətlə isə, görünən odur ki, Ermənistanda xalq hərbi xuntadan üz döndərib. Yerevan isə siyasi xaosdan meydan dərəbəyliyinə qədəm qoyur.

## Tənəzzül daha da dərinləşəcək

Ermənistanın müxalif “Vətənin qurtuluşu hərəkatı” bəyan edib ki, Yerevanın mərkəzindəki Baqramyan prospektini yalnız Nikol Paşinyanın vəzifədən gedəcəyi təqdirdə azad edəcək. Qeyd edək ki, Yerevanda həftələrdir davam edən etiraz aksiyalarından sonra müxalifət vahid halda birləşə, eyni zamanda hərbçilərin qiyamı fonunda xalqın dəstəyini ala bilmədi. İndi maraq doğuran məqam ölkədə hadisələrin hansı səpkidə inkişaf edəcəyidir. Əksər proqnozlar bundan ibarətdir ki, dövlət çevrilişinin qarşısının alınmasına rəğmən ölkədə vəziyyət yenə xaotik məcrada davam edəcək.

Bütün bunlarla yanaşı, ölkədə iqtisadi vəziyyətin getdikcə daha da ağırlaşdığı, insanların gündəlik maddi ehtiyaclarla bağlı çətinliklərinin miqyasının artdığı da müşahidə olunmaqdadır. Hadisələrin inkişaf axarı vəziyyətin hələ uzun müddət dəyişməz qalacağını, Ermənistanın üzləşdiyi tənəzzülün bir qədər də dərinləşəcəyini deməyə əsas verir.

Bu durumda iş adamlarının da ölkəni tərk etməsi problemləri artırır. Belə vəziyyətin yaranmasının səbəblərindən biri kimi iş adamlarına haqq qoyulması, onların qeyri-rəsmi ödənişlərə cəlb edilməsidir. Bununla razılaşmayan sahibkarlar qısa zaman ərzində müflis edilir, həbsə atılır.

“4rd.am” saytı yazır ki, ictimai-siyasi gərginliyin fonunda Ermənistanda aclıq çəkənlərin və narazıların sayı gündən-günə artır. Hakimiyyətdə olanlar bu faktları gizlətməyə çalışsalar da, reallıq belədir. Ermənistan hakimiyyət orqanlarının bütün hərəkətləri açıq-aşkar nümayiş etdirir ki, ölkədə ümumi vəziyyət çox gərgindir: “Bu nə ilə bağlıdır? Ermənistanı idarə edən, özünü bu ölkənin hakimiyyəti adlandıran kriminal-oliqarxik piramida bütün kiçik və orta biznesi məhv edir. Bu isə əhalinin narazılığına səbəb olur. Ermənistanın hakimiyyət orqanları həqiqəti nə qədər gizlətsələr də, iqtisadiyyatda sistemli böhran baş verir. Hakimiyyət orqanları ölkə iqtisadiyyatının fəlakətli vəziyyətdə olmasına dəlalət edən həqiqi rəqəmləri gizlədir”.

Bunlar Ermənistandakı ağır böhranın bütün sahələrə dərindən sirayət etdiyini göstərir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat konfransı xarici ölkələrin mediasında geniş işıqlandırılıb







İraqın rəsmi mətbu orqanı olan "əs-Sabah" qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı barədə məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, qəzetin müxbiri işğaldan azad olunmuş torpaqlarımıza, o cümlədən Ağdam şəhərinə səfəri zamanı gördüyü dağıntıların həcmindən dəhşətə gəldiyini qeyd edir.

Məqalədə müxbir Azərbaycan Prezidentinin fevralın 26-da keçirdiyi mətbuat konfransında iştirak etdiyini bildirib və bu barədə təəssüratlarını çatdırıb. Qəzet Prezident İlham Əliyevin iraqlı jurnalistin sualına cavabından fikirləri təqdim edib.

Prezident İlham Əliyev təkcə Ağdam məscidinin deyil, vaxtilə işğal altında qalan digər ərazilərimizdəki bütün məscidlərin, dini, tarixi və mədəniyyət abidələrimizin dağıntılara, təhqiramiz hallara məruz qaldığını bildirib: "Doğrudan da, Ağdam şəhərinin görüntüləri hamımız üçün çox ağrılıdır və bütün dünya bunu görməlidir. Ağdam məscidində donuz, inək saxlanılması Ermənistan tərəfindən bütün müsəlman aləminə edilən təhqirdir. Biz bunu belə qəbul edirik. Bu təhqiri edənlər bu gün Ermənistan siyasi müstəvisində də özləri üçün yer tapmaq istəyirlər. Ermənistanın keçmiş prezidenti Köçəryanın dağılmış və üzərində təhqiramiz ifadələr olan həmin Ağdam məscidinin önündə fotoşəkilləri var. Onlar bu cinayəti törədiblər və mən dəfələrlə müxtəlif tədbirlərdə, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində və digər beynəlxalq tədbirlərdə qeyd edirdim ki, bu cinayəti törədənlər, İslam müqəddəslərinin təhqirini özünə rəva bilənlər heç vaxt müsəlman ölkələri ilə dost ola bilməzlər".

Dövlət başçısı mətbuat konfransında iştirak edən media nümayəndələrinin nəzərinə çatdırıb ki, Azərbaycan dövləti azad olunmuş torpaqları, oradakı tarixi, dini, mədəniyyət abidələrini, eləcə də bütün məscidləri bərpa edəcək. "İslam ölkələrinin nümayəndələri bu məsələ ilə bağlı öz təkliflərini verirlər. Bu yaxınlarda sizin də qeyd etdiyiniz kimi, ISESCO-nun nümayəndə heyəti Azərbaycanda idi. Onlar Ağdam məscidini ziyarət etmişlər və ondan sonra ISESCO-nun Baş katibi ilə görüş əsnasında belə bir təklif irəli sürüldü ki, ISESCO bizim tarixi abidələrimizin bərpası işində öz rolunu oynaya bilər", - deyə Prezident iraqlı jurnalistin sualına cavabında bildirib.

Xatırladaq ki, mətbuat konfransında Azərbaycan Prezidenti dünyanın 35 media qurumunun nümayəndələrinin 50-dək sualını cavablandırdı, İkinci Qarabağ müharibəsinin başlanma səbəblərini, Rusiya sülhməramlılarının, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətini, azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini, Azərbaycanın qonşu dövlətlərlə münasibətlərini və digər məsələləri geniş şərh edib.

* * *

İtaliyanın "Il Giornale", "Messenger News", "Focus News 24", "Kmetro", "Metroct", "Politicamente Corretto", "EurasiaNews", "Globus Magazine", "Agenzia Nova" kimi mətbu orqanları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 26-da keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərə dair məlumatlar dərc edib. Məlumatlarda çoxsaylı yerli və xarici media nümayəndələrinin iştirak etdikləri mətbuat konfransının 4 saatdan artıq davam etdiyi və Prezident İlham Əliyevin 50-yə yaxın sualı cavablandırdığı vurğulanıb.

Məlumatlarda Prezident İlham Əliyevin açılış nitqində 1992-ci il 26 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən 613 mülki azərbaycanlının qətlə yetirildiyi Xocalı faciəsindən bəhs etdiyi bildirilib.

Yazılarda jurnalistlərin suallarını cavablandıran dövlət başçısının Vətən müharibəsinin nəticələrinə dair məlumat verdiyi, bunun otuz illik səmərəsiz danışıqlardan daha effektli olduğunu bildirdiyi qeyd olunub. Prezident İlham Əliyevin bu sözlərinə yer verilib: "Biz öz sərhədimizdə dayanmışıq və erməni əhalisinə qarşı hər hansı bir zərərli addımlar atmırıq. Biz orada "Azərbaycana xoş gəlmisiniz" lövhəsi asmışıq və mən anlamıram, bu, nəyə görə Ermənistanda hər hansı bir qıcıq doğurur. Biz yanlış heç nə yazmamışıq".

Həmçinin dövlətimizin başçısının fikirlərinə istinadən bildirilib ki, Azərbaycan mümkün olmayanı 44 gün ərzində reallığa çevirib, Xocalı qurbanlarının intiqamını döyüş meydanında alıb: "Biz Xocalıya da qayıdacağıq. Biz özümüzə məxsus olanı qaytarmışıq və nümayiş etdirmişik ki, bizim sözümüz və əməlimiz eyni dəyərə malikdir".

Məlumatlarda həmçinin ölkə başçısının Ermənistanın üçtərəfli bəyanatın icrasını pozmağa cəhd göstərəcəyi halda bunun onun üçün sui-qəsd olacağını, hər hansı revanş cəhdlərinin Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacağını bildirdiyi qeyd edilib. Prezident İlham Əliyevin Ermənistanda baş verən böhrana münasibətdə bu tragikomediyaya son qoyulmalı olduğunu bildirdiyi vurğulanıb. "Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış bəyanat icra ediləcəkdir... Müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq... Biz yeni reallıq yaratdıq və indi hər kəs bu reallıqla barışmalıdır, hesablaşmalıdır", - deyə ölkə başçısının fikirlərinə istinad olunub.

Əcnəbi əsgərlərə münasibətdə Prezident İlham Əliyev onların Azərbaycan ərazisində fəaliyyət göstərməsinin müvəqqəti xarakter daşıdığını, onların xüsusi missiya icra etdiklərini, bunun hərbi baza anlamına gəlmədiyini, beş ildən sonra Azərbaycanın bu məsələ ilə bağlı fərqli fikir sərgiləyəcəyi halda onların fəaliyyətinə son veriləcəyini, onların bu gün Azərbaycan ərazisində olması, eyni zamanda, azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacağını, Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsinin müzakirə mövzusu olmadığını, işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyinin təmin edildiyini, müntəzəm reydlər keçirildiyini, buna görə vəziyyətin tam nəzarət altında olduğunu bildirdiyi qeyd olunub.

Məlumatlarda həmçinin Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlamasına dair Prezident İlham Əliyevin fikirlərinə yer verilib.

Mətbuat konfransında habelə Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin qovulduğu ərazilərə qayıtmasının qrafiki məsələsinə də toxunduğu, onların qayıtmasından öncə ərazilərin minalardan təmizlənməli olduğunu, ziyanın qiymətləndirilməsinin tamamlanmalı, infrastrukturun bərpa edilməli, şəhər və kənd planlamasının başa çatdırılmalı olduğunu bildirdiyi qeyd edilib. Habelə Prezidentin sözlərinə istinadən vurğulanıb ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və Füzuli Beynəlxalq Hava Limanının bu payız istifadəyə verilməsi planlaşdırılıb. Hazırda həmin hava limanı ilə yanaşı, Şuşa şəhərinə də iki magistral yolun tikildiyi, Laçın və Zəngilan hava limanları da inşa ediləcəyi, Zəngilanın əhəmiyyətli bir logistik mərkəzə çevriləcəyi vurğulanıb.

Prezident İlham Əliyevin davamlı sülh və təhlükəsizliyin 10 noyabr bəyanatına sadiq qalmaqla, revanşizmdən çəkinmək və əməkdaşlığa üstünlük verməklə təmin edilə biləcəyini, məqsədin üçtərəfli əsasda əlaqəni bərpa etmək və Zəngəzur dəhlizini yaratmaq olduğunu, bunun reallığa çevriləcəyi halda Ermənistanın da sülhdən faydalanacağını bildirdiyi qeyd olunub.

Yazılarda ölkə başçısının erməni tərəfinin minalanmış sahələrin xəritələrini təqdim etməməsini cinayət kimi qiymətləndirdiyi, bu səbəbdən müharibə bitdikdən sonra həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında həlak olanların olduğunu, minalanmış sahələrin xəritələrini ölkəmizə verməməyin dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək demək olduğunu bildirdiyi diqqətə çatdırılıb.

# Yaponiyanın JIJI PRESS agentliyi Azərbaycanın işğaldan azad edilmiş ərazilərində başlamış quruculuq işlərindən yazıb







Yaponiyanın nüfuzlu JIJI PRESS agentliyi Azərbaycanın Ermənistan ordusunun işğalından azad edilmiş ərazilərində aparılan böyük quruculuq işləri barədə məqalə yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Böyük aeroportun inşası Azərbaycanın Dağlıq Qarabağ regionuna nəzarətini daha da gücləndirəcək" adlı məqalədə ötən ilin payızında baş vermiş Vətən müharibəsi barədə məlumat öz əksini tapıb. Qeyd edilib ki, Azərbaycanın qələbəsi və 30 ilə yaxın bir dövrdə Ermənistan ordusunun işğalı altında olan torpaqların azad edilməsi regionda böyük quruculuq işlərinə şərait yaradıb. Belə obyektlərdən biri kimi Füzuli aeroportunun xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Azərbaycanın möhkəm etnik əlaqələrə malik olduğu Türkiyənin dəstəyi ilə inşa edilən yeni aeroportun strateji əhəmiyyət daşıdığı, Ermənistanın işğalçı siyasətinə qarşı yönəldiyi də yazıda qeyd edilir.

Bildirilir ki, tikinti işləri ötən ilin sentyabr-noyabr aylarında baş tutmuş müharibə nəticəsində azad edilən Füzuli rayonu ərazisində aparılır. Agentliyin müxbirinin həmin əraziyə fevralın 27-də səfəri zamanı burada ağır texnikanın işləməsinin şahidi olduğu qeyd edilir.

Bu ərazidə Azərbaycan hökumətinin qərarı ilə inşa edilən uçuş-enmə zolağının 3 min metr uzunluğunda olacağı, beynəlxalq status daşıyacağı qeyd edilir. Məqalədə Füzuli rayonunun coğrafi mövqeyinə də xüsusi diqqət yetirilir. Bildirilir ki, Dağlıq Qarabağın cənub-şərqində yerləşən Füzuli rayonu 1993-cü ildə erməni işğalçıları tərəfindən ələ keçirilib. Bu ərazidə yaşayan insanlar qovulub, yaşayış məskənləri isə dağıdılıb. Bildirilir ki, hazırda inşa edilən aeroportun kənarında dağılmış evlər, üzüm tarlalarının qalıqları aydın görünür.

Məqalədə aeroportun yaxınlığında yarımstansiya və magistral yolun da inşa edildiyi qeyd edilir. Bu magistral yol aeroportu Dağlıq Qarabağın əsas yaşayış məntəqəsi hesab olunan Şuşa şəhəri ilə birləşdirəcək. Yolun inşası isə 2022-ci ilədək yekunlaşacaq.

Yazıda həmçinin vurğulanır ki, aeroportun fəaliyyətə başlaması Azərbaycanın Ermənistan qarşısında havada üstünlüyünü daha da möhkəmləndirəcək. Bundan əlavə, qonşu İranla da əlaqələrin inkişafına təsir göstərəcək.

## Biz birlikdə güclüyük!

# Bəşəriyyəti təhdid edən virus o zaman təslim olacaq ki...

## COVID-19 pandemiyasının sonunun tezliklə çatması həm də vətəndaş məsuliyyətindən, qaydalara əməl etməkdən asılıdır

*Əvvəli 1-ci səh.*

Bütün bunlar COVID-19-a qarşı birgə mübarizənin dünənki mərhələsində qaldı. Artıq dünya koronavirusa qarşı vaksinasiya aparılmasından danışır. Azərbaycan da o dövlərlərdən biridir ki, hələ dünyanın bir çox ölkələrinə çatmayan vaksinlərin ən inandırıcısını alaraq vətəndaşlarının sağlamlığının keşiyində dayanmağın sosial siyasətinin prioritetlərindən olduğunu təsdiqləyib.

Azərbaycan Prezidenti İlham Əliyev bu ciddi məsələni daim diqqət mərkəzində saxlamasını dəfələrlə öz çıxışları zamanı xüsusi qeyd etmişdir. Xocalı soyqırımının 29-cu ildönümü günü dövlət başçısının yerli və xarici media mənsubları üçün videoformatda keçirdiyi mətbuat konfransında da adıçəkilən məsələ diqqətdən kənarda qalmadı: "...Pandemiyanın lap əvvəlindən biz vəziyyəti nəzarətdə saxlayırıq. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Bizdə yoluxmanın səviyyəsi kifayət qədər aşağıdır. Koronavirusa yoluxmuş insanların sayı hazırda 200 mindən bir qədər çoxdur. Bugünkü vəziyyətə görə, aktiv xəstələrin sayı 2 mindən bir qədər artıqdır. Bizim xəstəxanalarda boş yerlər çoxdur. Ona görə ki, əvvələn pandemiyanın ilk aylarında biz 10-dan çox modul tipli yeni xəstəxana yaratmışıq, həmçinin son iki ayda yoluxanların və sağalanların sayı arasında sağalanların xeyrinə müsbət dinamika müşahidə olunur. Biz həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkəyik. Biz peyvəndləməyə yanvarın 18-də başlamışıq, yəni Avropada peyvəndləmə başlanandan cəmi bir ay sonra..."

Ölkəmizdə Çində istehsal edilmiş "CoronaVac" peyvəndi ilə vaksinasiya aparılır. Azərbaycan həm də lap əvvəldən "COVAX" layihəsinə qoşululub. Bu layihə üzrə "AstraZeneca", "Pfizer" və "Moderna" peyvəndlərini də almalıdır. Azərbaycana, hələlik, daxil olmasa da, "AstraZeneca" vaksininin göndərilməsi barədə Rusiya ilə müvafiq sənədlər imzalanıb. Ona görə ki, Rusiya şirkətləri postsovet məkanında bunun, həmçinin "Sputnik" vaksininin distribüterləridir. Ölkəmizə bu vaksinin daxil olmamasının səbəblərindən biri "Sputnik"in, hələlik Rusiyanın daxili ehtiyaclarını təmin etməsidir. Ona görə də xarici ölkələrə bu vaksin çox məhdud miqdarda göndərilib.

"CoronaVac" peyvəndinə gəldikdə isə, bu vaksinin 4 milyon dozasının alınması barədə müqavilənin bağlandığını bildirən dövlət başçısı onu da qeyd etdi ki, bəzən gündə 15-20 min nəfər vaksinlənir. Yəni, bu istiqamətdə bütün imkanlardan istifadə ediləcək. Bunun üçün müvafiq maliyyə vəsaitləri ayrılıb. Sadəcə, vaksinlərin istehsalçılardan gəlməsi kimi məsələlər öz həllini tapmalıdır.

Bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq səviyyədə, o cümlədən Qoşulmama Hərəkatının sədri olaraq təşəbbüsü ilə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəkləyib.

Azərbaycan Prezidentinin həmin sessiyada səsləndirdiyi tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi. Lakin görünən odur ki, hətta müttəfiqlər arasında belə ciddi problemlər yaranır: kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesablamağa başlayıblar. Ona görə vəziyyət bir daha göstərir ki, həmrəylik, bu bəlaya qarşı birgə mübarizə barədə verilən bəyanatlara baxmayaraq, təcrübədə dünya tamamilə əks vəziyyətlə qarşılaşır: "...Bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu, onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar. Hətta bu insanların imkanları olsa belə, sadəcə, onlar üçün əlçatan deyil. Sizə açıq deməliyəm, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq, - bunu etmişik, - bu gün biz də vaksinsiz qalardıq. Biz "AstraZeneca" vaksinini çoxdan almalı idik. Almamışıq. Artıq bir neçə aydır ki, almamışıq. "Sputnik" vaksinini də almamışıq. "COVAX" təşəbbüsü üzrə "Pfizer" və "Moderna" peyvəndlərini almalı idik, almamışıq. Özü də bizə onları nə vaxt alacağımızı demirlər. Yaxşı ki, bizim çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirirlər. Bizim bunu almaq üçün vəsaitimiz var. Bəs vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq? Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallıq göstəririk".

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ISESCO-nun "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirdiyi tədbirdə, videoformatda çıxışında bu məsələ ilə bağlı fikirlərini söyləyərkən bildirmişdir ki, bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik: "Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş, vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı qadınlarımızla fərəhlənə bilərik..."

Əlbəttə, bütün bunlar ölkə əhalisinin COVID-19 ilə birgə mübarizəsinin parlaq nümunələridir. Lakin unutmaq olmaz ki, dövlət öz vətəndaşlarının sağlamlığının qayğısına qaldığı halda, bəzən hələ də bəzi insanların laqeydliyinin şahidi oluruq. Nazirlər Kabineti yanında Operativ Qərargahın, həmçinin TƏBİB-in tövsiyə və qaydalarına əməl etməyi unudan məsuliyyətsiz insanların günahı üzündən son günlər yoluxmaların sayının artması heç də rahatlığa əsas vermir. Görünür, tətbiq olunan qayda-qanunların, eləcə də qadağaların yumşaldılması bəzilərində məsuliyyət hissini azaldıb. Bu isə koronavirusun daha geniş yayılması üçün yaradılan münbit şərait deməkdir. Axı, biz bu məsələdə də birgə mübarizənin ön sıralarında getməyi bacarmışıq. Nədir bizi məsafə saxlamağı unutduran? Unutmayaq: Biz birlikdə güclüyük. Bunu artıq sınaqdan çıxarmışıq.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# FHN-in Dövlət Yangın Nəzarəti Xidməti təhlükəsizlik tədbirlərini davam etdirir

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti paytaxtın Xətai rayonunun Əhmədli qəsəbəsində fəaliyyət göstərən bir sıra obyektlərin ərazisinin uzun müddət qamış, quru ot və yanar tullantılardan təmizlənməməsi nəticəsində yanğın təhlükəsinin yaranması ilə bağlı daxil olmuş məlumatla əlaqədar həmin əraziyə baxış keçirib.





FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ərazidə yerləşən bir sıra obyektlərin, o cümlədən neft boru kəmərlərinin keçdiyi sahənin uzun müddət qamış, quru ot və yanar tullantılardan təmizlənmədiyi təsdiqini tapıb.

Bunlar nəzərə alınaraq aidiyyəti təşkilatların rəhbərləri qarşısında məsələ qaldırılıb, xüsusi texnika və canlı qüvvə cəlb edilməklə ərazinin təmizlənməsinə başlanılıb. Bugünədək Xətai rayonunun Əhmədli qəsəbəsi 622/9-cu keçid ünvanında və Əhmədli qəsəbəsi yolu K.Kərimov küçəsində ümumilikdə üç hektardan çox sahə obyekt rəhbərləri tərəfindən işçi qüvvəsi və texnika cəlb edilməklə məişət tullantıları, kol-kos və qamışlıqdan təmizlənib.

İşlər yaxın günlərdə tam başa çatdırılacaq.



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

## *açıq tender elan edir*

Fondun Aparatının inzibati binasının 1-ci mərtəbəsində yerləşən holun əsaslı təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 400.00 (dörd yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu : 4**

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən, tenderdə iştirak haqqı geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir)** və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019 və ya 2020-ci il üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat **(Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.04.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.04.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***




# Sərvətlərlə zəngin Zəngilan

Prezident İlham Əliyev işğaldan azad edilən bölgələrə səfərləri zamanı sosial-iqtisadi təyinatlı obyektlərin təməlqoyma mərasimlərində iştirak etməklə həm də dünyaya mesaj göndərir ki, bu torpaqların əsl sahibi onu viran günə qoyan, xarabalığa çevirən Ermənistan yox, qurub-yaradan, yenidən quran, abad bir diyar edən Azərbaycandır. Bu baxımdan dövlət başçısının fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına növbəti səfəri də böyük əhəmiyyət kəsb edir.

## İndi bu zəngin sərvətlər yenidən Azərbaycana xidmət edəcək




Prezident bu dəfə də təsdiqlədi ki, vəd etdiyi kimi, düşmən tərəfindən dağıdılaraq viran qoyulmuş əraziləri cənnətə çevirmək qərarında israrlıdır. Qarabağda savaşdan sonra icrasına başlanan bir çox infrastruktur layihələri bunu sübut edir. Götürək Zəngilan rayonunu. Burada yalnız bir neçə salamat qalan evdə xarici ölkələrdən gətirilən ermənilər qanunsuz olaraq məskunlaşdırılmışdı. İndi isə Zəngilan rayonunda birinci “ağıllı kənd” layihəsi icra ediləcək. Bu, talan edilmiş Ağalı kəndidir. Onu da qeyd edək ki, layihəyə elə səfər zamanı start verilmişdir.

Düşmən işğal zamanı bu rayonda da təbii sərvətləri vəhşicəsinə talayaraq əsl ekoloji terror törətmiş, o cümlədən buradakı nadir çinar meşəsini məhv etmişdir. Dövlət başçısının bu baxımdan ailə üzvləri ilə birlikdə həmin meşənin yerləşdiyi Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkməsi təsadüfi deyildi. Bu, Zəngilanın dünyada məşhur olan çinar meşələrinin bərpası istiqamətində atılan ilk addım idi. Göründüyü kimi, düşmən işğal illəri ərzində floramız kimi, faunamızı da məhv etmişdir. Elə Bəsitçaya nəsil artırmaq üçün balıqların buraxılması da bununla bağlı idi.

Ötən dövr ərzində rayonun kənd təsərrüfatına da xeyli zərbə dəymişdir. Halbuki 1988-ci ilin statistik məlumatlarına əsasən, Zəngilanın cəmi əkin sahəsi 6726 hektar olmuş və burada tonlarla müxtəlif məhsullar yetişdirilmişdir. Əlbəttə, rayonun əmək, torpaq, iqlim və su resursları ilə indi daha çox məhsul əldə etmək mümkündür. Çünki hazırkı dövrdə kənd təsərrüfatının bütün sahələrində tətbiq edilən müasir yanaşma sayəsində ciddi inkişaf əldə olunub. Mütəxəssislər hesablayıblar ki, heyvandarlıqda yeni növ cinslərdən, bitkiçilikdə isə daha məhsuldar toxumlardan istifadə etməklə Zəngilanın işğaldan əvvəlki istehsal həcmini artırmaq imkanları var.

İşğaldan əvvəl ölkə üzrə əkilən torpaqların cəmi 0,4 faizinə malik olan və əsasən tütün və üzüm istehsalı üzrə ixtisaslaşmış rayonda tütünün istehsalının bərpa edilməsindən sonra ilk illərdə təqribən 22, üzümçülükdə isə təqribən 13 faiz artım ola bilər. Arpa, buğda, dənli və dənli paxlalı bitkilərin əkininin də işğaldan öncəki dövrə nisbətən artırılması mümkündür. İribuynuzlu heyvandarlığın bərpa edilməsi ilə bu sahədə 0,8, xırdabuynuzlu heyvandarlıqda isə 0,4 faiz artım gözlənilir. Həmçinin diri və kəsilmiş çəkidə ət istehsalında 0,3, yun istehsalında təqribən 3 faiz artım olacaq. Süd və yumurta istehsalında da müvafiq olaraq 0,4 və 0,2 faiz artım proqnozlaşdırılır.

Göründüyü kimi, bir kənd rayonu olaraq Zəngilanda aqrar sahəni inkişaf etdirmək üçün çox əlverişli şərait var. Bununla yanaşı, o həm də sənaye əhəmiyyətli rayonlardan biri ola bilər. Belə ki, buradakı “Vejnəli” qızıl yatağında ilkin hesablamalara görə, 6,5 ton qızıl və 3 min ton mis var. Həmin hesabatlar hələ sovetlər dönəmində aparılıb. Müasir texnika və texnologiyalarla həmin yataqların ehtiyatlarını daha dəqiq hesablamaq mümkündür. Bundan əlavə, rayonda üzlük daş istehsalına yararlı “Oxçuçay” mərmərləşmiş və “Daşbaşı-Esgurum” əhəng daşı yataqları yenidən istismar ediləcək. Eyni zamanda rayonda zəngin ehtiyatlara malik Bartaz-I və Bartaz-II porfirit, həmçinin kərpic istehsalına yararlı olan gil və qum-çınqıl yataqları da mövcuddur. Həmin təbii sərvətlərdən istifadə edilməsi ölkə istisadiyyatının inkişafına öz töhfəsini verəcək.

Ötən illər ərzində istər dünyada, istərsə də Azərbaycanda iqtisadi sahədə bir çox yeniliklər baş verib və nailiyyətlər əldə edilib. Şübhəsiz ki, ermənilər tərəfindən işğal edilməsəydi, Zəngilan rayonu da bu inkişafdan kənarda qalmayacaqdı. Buna baxmayaraq, müasir dövrdə elmin inkişaf səviyyəsi, intensiv istehsal texnologiyaları, innovativ becərmə üsulları və digər amillər hesabına Zəngilanın zəngin sərvətindən, potensial imkanlarından səmərəli istifadə etməklə bu geriliyin aradan qaldırılacağı şübhəsizdir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Tovuzda yaz-tarla işlərinə hazırlıq sürətlənir

Tovuz rayonunun ümumi ərazisinin 138,3 min hektarını kənd təsərrüfatı təyinatlı torpaqlar təşkil edir. Əkinə yararlı torpaqların 23,2 min hektarı daimi suvarılan ərazilərdir. Ümumilikdə 20-dən çox kənd üzrə 9,6 min hektar əkin sahəsi əsasən Ağstafa HQİİ-nin sağ sahil kanalı vasitəsilə suvarılır.



Son illər havaların quraq keçməsi səbəbindən əkin sahələrinin suvarılması üçün istifadə olunan təbii mənbələrdə suyun azalması, həmçinin Tovuzçay və Axıncaçay su anbarlarında su ehtiyyatlarının yığılmaması rayonun təsərrüfatlarında ciddi çətinliklər yaratmışdır. Bu səbəbdən təsərrüfatların suvarma suyu ilə təminatının qismən yaxşılaşdırılması üçün Ağstafa HQİİ-nin sağ sahil kanalının xidmətindən daha səmərəli istifadə olunması, Kür çayı üzərində quraşdırılmış nasos qurğularının və daşıyıcı su kəmərlərinin işlək vəziyyətdə saxlanılması diqqət mərkəzindədir.

Hazırda rayon ərazisində yaz-tarla işlərinə hazırlıq çərçivəsində su təminatının yaradılması üçün 1981-ci ildən istismar olunan üçpilləli nasos stansiyalarında və su kəmərlərində əsaslı və cari təmir işləri aparılır, arxlar təmizlənərək qaydaya salınır. Görülən bütün bu işlərə ciddi nəzarət edilir.

Elə bu günlər rayon rəhbərliyi Kür çayı üzərində quraşdırılmış üçpilləli nasos stansiyasında olmuş və təmir-bərpa işlərinin gedişi, liltəmizləmə qurğusunun yenilənməsi prosesi ilə tanış olmuşdur. Qeyd olunmuşdur ki, rayonun əkin sahələrinin suvarma suyu ilə təmin edilməsində stansiya mühüm rol oynayır. Odur ki, bu böyük qurğunun fasiləsiz işləməsi üçün bütün zəruri tədbirlər vaxtında görülməli, xüsusilə havaların quraqlıq keçdiyi və təbii mənbələrdə su olmadığı bir şəraitdə nasos stansiyası daim işlək vəziyyətdə saxlanılmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının öhdəsində olan əkin sahələrinin fasiləsiz suvarma suyu ilə təmin olunması üçün əlavə tədbirlər görülməsi barədə aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilmiş, suvarma məsələləri ilə bağlı müraciətlərə həssas yanaşılması, suyun ədalətli bölgüsü, müasir suvarma metodlarının tətbiqi diqqətə çatdırılmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Kəngərli rayonunda 100 hektar ərazidə püstə bağı salınıb

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq Kəngərli rayonu ərazisində 100 hektar sahədə püstə bağı salınıb.

AZƏRTAC xəbər verir ki, 2016-2017-ci illərdə həyata keçirilən tədbirlər çərçivəsində 29 min 250 püstə fidanından istifadə olunub. 100 hektar ərazini əhatə edən püstə bağının ətrafında əlavə olaraq 4 hektar sahədə qoruyucu yaşıllıq zolağı əkilib.

Ümumilikdə, proqramın icrası müddətində 13 tingçilik təsərrüfatı, 28,1 hektar sahədə meyvə toxmacarlığı yaradılıb, 1128,5 hektar sahədə meyvə və üzüm bağı salınıb, 554 hektar sahədə tinglə bərpa, 483,5 hektar sahədə toxumla əkin aparılıb. Bağların salınması üçün 870 min 352, bərpa tədbirləri məqsədilə 138 min 500 meyvə tingindən istifadə olunub.

# Kənd Təsərrüfatı Nazirliyinin layihəsi çərçivəsində heyvanların identifikasiyası həyata keçirilir

Kənd Təsərrüfatı Nazirliyinin Dünya Bankı ilə birgə icra etdiyi Kənd Təsərrüfatında Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi çərçivəsində ölkədə Heyvanların İdentifikasiya və Qeydiyyatı Sisteminin (HİQS) yaradılması prosesinə start verilib.



Nazirlikdən verilən məlumatda bildirilir ki, prosesə başlamaq üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi təşkilat tərəfindən strategiya hazırlanıb. Hazırlanmış strategiya və texniki şərtlər əsasında proqram təminatının satınalınması üzrə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredir və İnkişaf Agentliyi (AKİA) tərəfindən beynəlxalq seçim aparılıb. İtaliya, Çexiya, Şimali Makedoniya və Azərbaycan şirkətlərinin daxil olduğu konsorsiumla müqavilə imzalanıb.

Sistemin yaradılması layihənin heyvan sağlamlığı və baytarlıq xidmətinin inkişaf etdirilməsi komponentinin fəaliyyətləri sırasında nəzərdə tutulub. Sistem diri heyvanların və heyvandarlıq məhsullarının “fermadan süfrəyədək” izlənməsi, damazlıq, heyvan sağlamlığı və digər vacib modullardan ibarət olacaq. HİQS ölkədə elektron kənd təsərrüfatı və digər elektron sistemlərlə inteqrasiya olunacaq. Proqram təminatı yaradıldıqdan sonra seçilmiş ərazidə iribuynuzlu heyvanlar və atlarda identikləşdirmə aparılmaqla sistem sınaqdan keçiriləcək. Sistemin mərhələli şəkildə yaradılması və bütün ölkə üzrə tətbiqi nəzərdə tutulur.

HİQS-nin yaradılması ölkədə qida təhlükəsizliyinin təmin edilməsi və heyvandarlığın inkişaf etdirilməsində əhəmiyyətli rol oynayacaq. Layihənin benefisiarı Qida Təhlükəsizliyi Agentliyidir.

Layihənin heyvan sağlamlığı və baytarlıq xidmətinin inkişafı məqsədilə indiyədək gördüyü işlərdən ölkə üzrə brusellyoz xəstəliyinə qarşı uğurla həyata keçirilən yeni mübarizə proqramını, Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq fakültəsində təhsil proqramının beynəlxalq standartlara uyğunlaşdırılmasını və maddi-texniki bazanın gücləndirilməsi üçün 2 nümunəvi istehsalat fermasının yaradılmasını, özəl baytarlıq fəaliyyətinə keçidlə əlaqədar beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan üçün mexanizmin hazırlanmasını qeyd etmək olar.

Kənd Təsərrüfatında Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsinin əsas məqsədi fermerlərin yerli və beynəlxalq bazarlara çıxışının yaxşılaşdırılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün sanitariya və fitosanitariya sistemlərinin gücləndirilməsi, aqrobiznes dəyər zəncirləri üzrə modellərin yaradılması, maliyyə xidmətlərinin göstərimməsi, toxumçuluq sektorunun inkişaf etdirilməsi fəaliyyətləri icra olunur.

# Su quyuları ilə tanınan Muğanlı kəndi

Bölgələrimizdə az sayda olsa da, elə kəndlərimiz var ki, orada köhnə, dədə-baba üsulu ilə işləyən su quyuları bu günə kimi qorunub saxlanılır. Belə yaşayış məntəqələrimizdən biri də Ağstafanın Muğanlı kəndidir.



AZƏRTAC bildirir ki, Muğanlı kəndində bir çox həyətdə su quyularına rast gəlmək olur. Kənd sakinlərinin əksəriyyəti bu gün də dədə-baba üsulu ilə düzələn su quyusundan istifadə edirlər.

Bu quyuların suyu qışda ilıq, yayda sərin olur. Dərinliyi isə elə də çox deyil. Cəmi 5-6, hətta bəzi evlərin həyətindən 4 metrlikdən də su çıxır. “Bu quyunun suyu çox yaxşıdır. Kəndimizdə bir neçə belə quyu var. İndi hava soyuq olsa da, quyunun suyu ılıqdır. Yayda isə suyu çox sərin olur. Suyu soyuducuya qoymağa ehtiyac qalmır. Bəzi yerlərdə quyular çarxla işlədilir. Amma müəyyən yerlər də var ki, orada quyulara motor qoyulub, yəni müasirləşdirilib. Bu quyuların suyundan həyətyanı torpaqların suvarılması üçün də istifadə edilir”, - deyə kənd sakini İsgəndər Nəsibov bildirib.

Kənd sakini Qurban Yusibovun həyətindəki su quyusu 40-50 il bundan öncə qazılıb. Hələ də işlək vəziyyətdədir və suyu dədə-baba üsulu ilə çıxarır. “Quyunun suyu içməyə yararlıdır. Yaxşı samovar çayı olur. Əlavə xərc çəkib su almağa da ehtiyac yoxdur”, - deyə Q.Yusibov əlavə edib.

Yay aylarında havaların isti keçdiyi vaxtlarda quyularda su nisbətən azalsa da, bu, sakinləri narahat etmir. Çünki fəsil dəyişdikcə quyu suyunun səviyyəsi yenidən qalxır.

# Dünənin hara, bu günün hara, Astara!

Azərbaycan adlı məmləkətin dilbər bir guşəsidir Astara. Buradakı çoxsaylı qalalar, tarixi yerlər onun keçmişini, qədimliyini yaşadıb bugünümüzə çatdıran maddi mədəniyyət nümunələridir. Astarada olanda, onun haqqında nəsə yazmaq istəyəndə Cənub həsrətli şairimiz Söhrab Tahirin bu misraları yada düşür: “Mənim qollarımı iynə-sap edin, Tikin Astaranı biri-birinə”.



Heç kəs dünyanın yaşını doğru-dürüst deyə bilməz. Deyilənlər də fərziyyələrdən, ehtimallardan ibarətdir. Ancaq bir həqiqət də var ki, sakini olduğumuz planetdə - Yer kürəsində elm və texnikanın əsaslı inkişafı son 200-300 ildə baş vermişdir. İnternetin dünyaya ayaq açması isə indiki nəsil nümayəndələrinin gözü qarşısında olmuşdur.

Dünyadakı inkişaf fonunda Azərbaycanımız da, heç şübhəsiz ki, tərəqqi etmişdir. Bir neçə il öncə ölkəmizin dünya kosmos ailəsinə üzv olması buna sübutdur. Tarixə bir daha nəzər salanda, bunları təhlil edəndə XX əsrin 50-60-cı illəri yada düşür. O vaxt keçmiş SSRİ məkanında Azərbaycan müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanda bir canlanma yarandı, hər sahədə inkişaf başladı. Astara da bu inkişafın ön sıralarında addımladı. Rayonun zəhmət adamları yorulmaq bilmədən çalışaraq çay plantasiyalarını, sitrus meyvə bağlarını, tərəvəz sahələrini genişləndirdilər. Yetişdirdikləri məhsullar keçmiş SSRİ-nin bütün şəhərlərinə göndərildi. Əvəzində astaralılar yaxşı əməkhaqqı alıb gün-güzəranlarını yaxşılaşdırdılar. Eyni zamanda Astara da abadlaşdı, rayon respublikada öncüllər sırasına çıxdı.

Amma 90-cı illərin məlum hadisələri zamanı Astara da məhrumiyyətlərlə qarşılaşdı. Onilliklər ərzində böyük zəhmətlə tikilən, qurulan nə vardısa, məhv olub getdi, insanların yaşayış səviyyəsi aşağı düşdü. Lakin nə yaxşı hər bir zülmət gecənin işıqlı sabahı varmış. Respublikamız, o cümlədən onun dilbər guşəsi olan Astara da bu zülmətdən, çətinlikdən, səfalətdən silkələnib çıxmağı bacardı. Ölkənin hər yerində olduğu kimi, Astarada da yaranmış süstlüyün, laqeydliyin, ümidsizliyin buzu yavaş-yavaş əriməyə, tikinti-quruculuq, abadlıq işləri gündən-günə genişlənməyə başladı. Yeni məktəblər, səhiyyə və mədəniyyət ocaqlarının tikintisinə start verildi, köhnələri əsaslı şəkildə təmir edildi. Onların hər biri yeni avadanlıqlarla, ləvazimatlarla təchiz olundu.

Birinci regional inkişaf dövlət proqramı çərçivəsində Astarada 90 meqavoltluq elektrik stansiyası istifadəyə verildi. Ölkəmizin elektrik sisteminə qoşulan bu stansiya indi cənub bölgəsinin enerji təminatında əhəmiyyətli rol oynayır. 2011-ci ildə istismara verilən Astara Qaz Kompressor Stansiyası isə əhalinin həm “mavi yanacağ”a olan tələbatını ödəyir, həm də qonşu İran İslam Respublikasına təbii qaz ixrac edir. Normal işıq və qazın olması əhalinin rifahının yaxşılaşmasını təmin etməklə bərabər, yeni istehsal sahələrinin yaranmasına, turizm və digər layihələrin icrasına imkan verir. Bu gün Astara aqrar sənaye potensialına və turizmin inkişafına görə Azərbaycanda seçilən rayonlardandır.

Hazırda regionların sosial-iqtisadi inkişafı üzrə 4-cü dövlət proqramı rayonda uğurla icra olunur. Nəzərdə tutulan layihələr, tədbirlər vaxtında həyata keçirilir. Astara şəhərində torpaq sürüşməsi nəticəsində evləri qəzalı vəziyyətə düşmüş şəxslər üçün 36 mənzilli yaşayış binası, Burzubənd kəndində 630, Şəvqo və Xıçaso kəndlərinin hər birində 40 şagirdlik məktəb binaları, Ərçivan qəsəbəsində körpələr evi-uşaq bağçası üçün 80 yerlik yeni bina tikilib istifadəyə verilmişdir. “Zirvə” Benəlxalq İdman Klubu tərəfindən inşa olunan beynəlxalq səviyyəli basketbol meydançası və idman zalı, “Oxatan” MMC-nin Maricel Astara Resort Kompleksi, Qamışoba kəndində “Zirvə” Beynəlxalq Təlim-Məşq Bazası da istifadəyə verilmiş obyektlər sırasındadır. Eyni zamanda çətin relyefdə yerləşən və indiyəcən avtomobil yolu olmayan Dolu, Sibiyyət, Diqo, Avyarud kəndlərinə yol çəkilişi başa çatmış, burada yaşayan insanları illərdən bəri rahatsız edən problemlər həllini tapmışdır. Hazırda isə Heydər Əliyev prospektində Vətən müharibəsindəki qələbənin şərəfinə “Zəfər” parkı salınır. Söz düşmüşkən onu da qeyd edək ki, rayonda mənzil növbəsinə götürülmüş 11 şəhid ailəsi və 3 Qarabağ müharibəsi əlili üçün fərdi yaşayış evləri inşa edilmişdir. Cari ildə bu kateqoriyadan olan daha 20 ailə üçün fərdi yaşayış evinin tikilməsi nəzərdə tutulmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafı üçün yaradılmış əlverişli şərait Astarada çay, çəltik və sitrus meyvələri istehsalına böyük təkan vermişdir. Təkcə keçən il 205 hektardan 844 ton çəltik əldə edilmiş, hər hektarın məhsuldarlığı 41 sentnerə çatmışdır. İstehsal edilən çəltiyin müasir standartlara uyğun emalı, çeşidlənməsi və qablaşdırılması məqsədilə Ərçivan qəsəbəsində gündəlik istehsal gücü 40 ton olan çəltik emalı zavodu istismara verilmişdir. Həmçinin 137 hektar məhsuldar çay plantasiyasından 628 ton yaşıl çay yarpağı dərilərək emal müəssisələrinə göndərilmişdir. Sevindirici haldır ki, burada istehsal edilən çay xarici bazarlara da ixrac olunur.

Son illər rayonda fiziki şəxslər və pay torpağı olan mülkiyyətçilər tərəfindən yeni sitrus bağları salınmışdır. Hazırda onların ümumi sahəsi 4 min 160 hektardır. Təcrübə mübadiləsi nəticəsində Astaraya şaxtayadavamlı yeni sitrus tingləri gətirilmiş, innovativ üsullarla yeni sitrus bağları salınmışdır. Keçən il rayon üzrə 34 min ton məhsul istehsal olunmuşdur.

Astaradan söz açıb astaralı gənclərin İkinci Qarabağ savaşındakı iştirakından danışmamaq mümkün deyil. 44 günlük Vətən müharibəsində 574 astaralı gənc torpaqlarımızın düşmən tapdağı altından xilas edilməsində qəhrəmanlıq göstərmişdir. Onlardan 41 nəfəri şəhidlik zirvəsinə ucalmış, 132 nəfəri isə qazi olmuşdur. Şəhid ailələri və qazilər bu gün hər cür qayğı ilə əhatə edilmişlər.

Belə bir deyim var: “Gözəllik ondur, doqquzu dondur”. Təbiət, doğrudan da, öz qüdrətindən Astaraya gözəl don biçib, bu diyardan heç nəyi əsirgəməyib. Dağ, meşə, dəniz onun hüsnünə yaraşıq verir. Çox yox, 10-15 il əvvəl buradan gedən insanlar indi rayona qayıdarkən onu tanıya bilmirlər. Astara şəhərində Xəzər dənizi sahili boyunca salınan bulvar, onun ərazisində istirahət və əyləncə üçün yaradılan şərait sanki cənnəti xatırladır. Bütün bunları gördükcə insan da ilhamlanır:

*Səni tanımadım, varlı olassan,*
*Gör dünənin hara, bu günün hara!*
*Burda göz oxşayır hər tərəf, hər yan,*
*Mübarək dondasan indi, Astara.*

*Xəzərin sahili dönüb cənnətə,*
*Nə qədər baxsan da, doymursan ondan.*
*Əhsən belə işə, belə zəhmətə,*
*Gülün ətri gəlir geydiyin dondan.*

*Bir yanın yamyaşıl sıra dağlardır,*
*Bir yanın dupduru o mavi Xəzər.*
*Nə nemət deyirsən, qoynunda vardır,*
*Onlar könül oxşar, süfrələr bəzər.*

*Hüsnün sığallanır insan əlilə,*
*Ən ucqar kəndlərə yollar çəkilir.*
*İnsan vüqarlıdır öz əməlilə,*
*Binalar ucaldır, ağaclar əkir.*

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!







# Könül şəhri yarı

## Şəhid Şəhriyar Ağamalıyevin xanımı: "Onun yarıda qalan arzularını gerçəkləşdirmək üçün yaşayıram"

*Elə bil ürəyinə dammışdı... Əvvəldən həyat yoldaşını özünün yoxluğuna, onsuz keçəcək çətin günlərə, məşəqqətli dönəmə hazırlayırdı...*

*Hələ Vətən savaşı başlamazdan bir neçə gün öncə yoldaşını və azyaşlı oğlunu Bakıya qayınanasıgilə gətirmişdi. Sanki apardığı kimi də geri gətirib onu öz əllərilə ailəsinə təhvil vermişdi...*

Hər dəfə telefonla danışanda da "möhkəm ol, özünü, uşaqları qoru" deyirdi. Amma ogünkü söhbətləri əvvəlkilərindən fərqliydi... Səsi, sözləri, danışığı, telefonun o başından duyulan nəfəsi belə bir başqaydı... Sanki hal-əhval tutmaq üçün yox, vidalaşmaq üçün zəng vurmuşdu... Sanki bu dəfə həmişəki adi tapşırıq kimi yox, vəsiyyət kimi deyirdi son sözlərini - "möhkəm ol, mənə nəsə olsa, başını dik tut, əyilmə"...

Beləcə, körpə oğlunu, hələ dünyaya gəlməyən qızını həyat yoldaşına, yoldaşını isə Allaha əmanət edib vidalaşdı... Səhəri gün Tanrının ən uca məqamına, şəhidlik zirvəsinə rahat, gözü arxada qalmadan yüksəlmək üçün...

Əslində Nərminə inanmırdı, heç ağlının ucundan belə keçirmirdi ki, bu, könlünün şəhri yarı ilə son söhbəti olacaq... Bir daha onun nə səsini eşidəcək, nə üzünü görəcək...

Axı hələ cəmi üç il idi evlənmişdilər. Axı hələ yeni doğulacaq qızlarına birlikdə ad seçəcəkdilər. Balalarını arzuladıqları kimi böyüdəcəkdilər... Qarşıda birgə addımlayacaqları uzun, xoşbəxt ömür yolu olacaqdı...

Amma sən demə, taleyin yazısı tamam başqaymış... Qismətində bundan sonrakı həyatını yarsız, tək, qürurlu şəhid xanımı olaraq yaşamaq, övladlarını onsuz boya-başa çatdırmaq varmış...



İmran ilk doğum gününü şəhid övladı kimi qeyd etdi



Şəhriyarın şəhadətindən sonra dünyaya gələn Şəhrinur



Şəhriyarın komandiri olduğu bölük - Suqovuşan qəhrəmanları

### Təsadüfi tanışlıqdan sevgiyə gedən yol

İkinci Qarabağ müharibəsinin şəhidi Şəhriyar Ağamalıyevin həyat yoldaşı Nərminə Ağamalıyeva nəmli, kədər dolu gözlərini bir nöqtəyə zilləyib fikirli-fikirli susur. Xəyalı Şəhriyarlı illəri, onlu xatirələri dolaşır. Demək istədiyi sözlər boğazında düyünlənib qalır... Özünü birtəhər ələ alıb, gözyaşlarını silə-silə söhbətə tanış olduqları günü xatırlamaqla başlayır:

- Deyirlər, bütün təsadüflər zərurətdən doğur. Bizim tanışlığımız da elə təsadüf nəticəsində baş vermişdi. Mən Pedaqoji Universitetin İbtidai təhsil fakültəsinin son kursunda təhsil alırdım, eyni zamanda "Bakcell" şirkətində operator işləyirdim. Şəhriyar isə SOCAR-da çalışırdı. Özü də "Elmlər Akademiyası" metrostansiyası yaxınlığında kirayədə qalırdı. Mən həmin stansiyadan çıxıb avtobusa minərək məskunlaşdığımız yataqxanaya gəlirdim. Sən demə, Şəhriyar məni görüb bəyənib, başlayıb gizlincə izləməyə. Bir aydan sonra mənə yaxınlaşdı. Dedi "Sizi təsadüfən dayanacaqda görüb, bəyənmişəm. Xeyli vaxt da izləmişəm. Çox xoşuma gəlirsiz". Sözün düzü, əvvəl inanmadım. Sərt danışdım. Amma o, geri çəkilmədi. Bir müddət də arxamca gəldi. Axırda bir yağışlı gündə yenə yaxınlaşdı. Dedi "Mən sizə pis məqsədlə yanaşmıram. Fikrim ciddidir. Sizinlə ailə qurmaq istəyirəm. İcazə verin bir-birimizi tanıyaq". Əvvəl şəxsi nömrəmi yox, iş nömrəmi verdim. Söhbət etdikcə, onu tanıdıqca gördüm çox ağıllı, tərbiyəli, mədəni, ailəsinə dəyər verən oğlandı. Beləcə, bir-birimizi bəyəndik, sevdik...

### "İşdə komandir sən olsan da, evdə komandir mənəm"

2017-ci ilin iyun ayında nişanlanırlar, sentyabrın 6-da isə toyları olur. Nərminə həyat yoldaşının ata-baba yurdu olan Hacıqabula gəlin köçür. Lakin toydan sonra Şəhriyar Ağamalıyev SOCAR-da ixtisara düşür. İslam Universitetinin Şərqşünaslıq fakültəsini bitirsə də, bir müddət rayonda tikinti sahəsində çalışır, taksi sürücüsü kimi fəaliyyət göstərir. Sonra zabitlik kurslarına yazılaraq hərb sənətinə yiyələnmək qərarına gəlir. Əslində bu seçimi etməsi də təsadüfi deyildi. Çünki ailəsində hərbçilər vardı. Əmisi Daşqın Ağamalıyev I Qarabağ müharibəsi zamanı şəhid olmuşdu. Digər əmisi Coşqun Ağamaliyev aviasiya sahəsində polkovnikdir. İki əmisi oğlu da hərbçidir, aviasiya sahəsində çalışırlar. Özü isə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hərbi xidmət keçmişdi. Görünür, hərb sənətinə olan sevgi və maraq ona da qanla keçmişdi. Amma nə biləydi ki, şəhid əmisi ilə eyni taleni yaşayacaq. Nə biləydi ki, qismətinə əmisi ilə eyni yaşda şəhid olub, eyni qəbiristanlıqda torpağa tapşırılmaq yazılıbmış...

- Şəhriyar 3 aylıq zabitlik kursunu uğurla bitirdi. İlk təyinatı Goranboya verildi. Təxminən 3 aydan sonra Tərtərdəki Xüsusi Təyinatlı Qoşunların hərbi hissəsinə tağım komandiri kimi təyinat aldı. Bir müddət sonra yenidən Goranboydakı Xüsusi Təyinatlı Qoşunların hərbi hissəsinə qayıtdı. Vətən savaşı başlayanda da elə həmin hərbi hissədə xidmətdə idi.

Sənətini çox sevirdi Şəhriyar. Hərb üçün yaranmışdı sanki. Çox vətənpərvər, cəsur oğlan idi. İşində sərt, ciddi, məsuliyyətli idi. Amma xidmətdə nə qədər sərt olsa da, evdə bir o qədər mülayim idi. Həm yoldaşına, həm də uşağına qarşı qayğıkeşiydi. Özü də qayğıkeş övlad olub. Hər şeyin yerini bilirdi. Heç kimi bir-birindən ayırmırdı. Böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı. Nə istəyirdiksə, deyirdiksə, edirdi. Hərdən zarafatla deyirdim ki, işdə komandir sən olsan da, evdə komandir mənəm. O da gülürdü. İstəyirdi övladı yaxşı yesin, geyinsin, təhsil alsın. Onun üçün də nə lazımdırsa edirdi. Bizə heç bir çətinlik yaşatmırdı. Nə maddi, nə mənəvi. O, mənim üçün ideal insan idi. Hər xanımın arzuladığı həyat yoldaşı idi. Allahıma şükürlər olsun ki, mənim qarşıma çıxmışdı. Birlikdə yaşadığımız ömür qısa olsa da, bütün həyatım unutmayacağım xatirələrlə zəngindi...

### Öz ad günündə 8 erməni silahsız öldürən leytenant

2020-ci il fevralın 28-i Ağamalıyevlər ailəsinin ən sevincli günlərindən biri olur. Cütlüyün ilk övlad payı dünyaya gəlir. Oğlunun adını Şəhriyar özü seçir. "Qurani-kərim"in Ali - İmran surəsindən İmran adını verir oğluna. Döyüşlər başlamazdan əvvəl isə ikinci övladlarının yolunu gözləyirdilər. Elə ona görə də Şəhriyar ailəsini götürüb Bakıya gətirir.

- Sentyabrın 6-da toyumuzun üçüncü ildönümü idi. Deyə-gülə qeyd etdik, tort kəsdik. Bir-iki həftə sonra bizi Bakıya anamgilə gətirdi. Tapşırdı ki, hələlik burda qal, həkimə də rahat gedib-gələrsən. Sanki məni anama əmanət edib getdi. Necə aparmışdı, eləcə də öz əlilə təhvil verdi...

Müharibə başlamazdan bir gün əvvəl səhərə yaxın mənə zəng etdi. Dedi "Nərmin, mənə təcili kontur göndər, dağa çıxacağam". Ancaq müharibə ilə bağlı heç nə demədi. Açığı, qəribə gəldi məndən kontur istəməsi, çünki bu vaxta qədər istəməmişdi. Göndərdim. Səhərisi döyüşlərin başlandığını bildim. Bir də 3 gün sonra, ilk döyüş tapşırığını tamamladıqdan sonra mənimlə əlaqə saxladı və kef-əhval etdi.

Azərbaycan Ordusunun leytenantı olan Şəhriyar Ağamalıyev ölkəmizin ərazi bütövlüyünün bərpası üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə Xüsusi Təyinatlı Qoşunların tərkibində taqım komandiri kimi iştirak edirdi. Ona verilən döyüş tapşırığını elə ilk günlərdə yerinə yetirmiş və Talışkənd tərəfdə möhkəmlənmişdi. Leytenant Ağamalıyev taqım komandiri kimi döyüş tapşırığını mükəmməl yerinə yetirdiyi üçün rütbəsini artırmadan bölük komandiri vəzifəsinə yüksəlmişdi. Yayda isə baş leytenant rütbəsini verəcəkdilər. Lakin qismət olmur...

- Müharibə başladıqdan bir gün sonra - sentyabrın 28-si Şəhriyarın ad günü idi. 31 yaşı tamam olurdu. Evindən, ailəsindən uzaq keçən doğum günü... Demə, bu, onun sonuncu doğum günü olacaqdı. Bir daha yaşının üstünə yaş gəlməyəcəkdi. Demə, bundan sonra bütün doğum günlərini onsuz qeyd edəcəkdik...

Dəfn mərasimində döyüş yoldaşları danışırdılar ki, həmin gün Şəhriyar 8 erməni öldürüb, özü də silahsız, yalın əllə. O, əsl qəhrəman idi. Qəhrəmanlıq onun canında, qanında idi. Xalqımızın başına açdıqları müsibətə görə ermənilərə nifrət edirdi. İntiqam hissi ilə alışıb yanırdı. Və müharibə başladığı, torpaqlarımızı geri almaq imkanı yarandığı üçün sevinirdi. Heyf ki, şəhid oldu, qələbəmizi tam görə bilmədi. Bu, məni çox incidir...

### Sonuncu zəng...

Nərminə Ağamalıyeva deyir ki, həyat yoldaşı müharibədə olduğu müddətdə təxminən 5-6 dəfə telefonla danışıblar. Həmişə də söhbətlərinin sonunda ona eyni sözləri deyirdi - "Hər an hər şeyə hazır ol, müharibədə hər şey ola bilər". Axırıncı dəfə isə oktyabrın 29-da danışırlar. Bu, onların son söhbəti olur.

- Bir neçə gün idi Şəhriyardan xəbər çıxmırdı, əlaqə saxlaya bilmirdik deyə narahat qalmışdıq. Axırı oktyabrın 29-da zəng etdi, çox sevindik, rahatladıq xeyli. Amma budəfəki danışığı əvvəlkilər kimi olmadı. Uşaqları tapşırdı mənə. Dedi "özündən muğayat ol, uşaqları qoru. Mənə nəsə olsa, özünü itirmə, möhkəm dur". Elə bil ürəyinə dammışdı... Vəsiyyətini edirdi...

Amma mən heç inanmırdım şəhid olar. İçimdə inam vardı ki, ona heç nə ola bilməz. Görünür qismət beləymiş... Şəhidlik alnına yazılıbmış deməli. Şəhadət elə bir uca məqamdı ki, yalnız Allah tərəfindən seçilmişlərə qismət olur. Şəhriyar da o seçilmişlərdəndi. Mən şəhidimlə fəxr edirəm. Qürur duyuram ki, belə bir qəhrəman kişinin həyat yoldaşıyam...

Şəhriyar Ağamalıyev oktyabrın 30-da Suqovuşanda qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Həmin gün 7-8 əsgər pulemyot atəşinə məruz qalır və hamısı şəhid olur. Ş.Ağamalıyev yaralı yoldaşını döyüş bölgəsindən çıxarmaq istəyəndə snayperlə vurulur. Həmin gün ermənilər dayanmadan atəş açaraq komandirin nəşinin döyüş bölgəsindən çıxarılmasına imkan vermirlər. Bir gün sonra səhərə yaxın leytenantın nəşini döyüş ərazisindən çıxarmaq mümkün olur.

- Əvvəl məndən gizlətdilər. Qayınanam anama xəbər verdi. Anam dedi hazırlaş, Hacıqabula gedirik, ancaq səbəbini demədi. Gördüm anam ağlayır. Soruşdum nə olub, niyə ağlayırsan? Heç nə demədi. Bircə onu soruşdu ki, toyunuzun neçə ili tamam oldu? Üç il. Cəmi üç il...

### "Yuxuda saçıma sığal çəkib, dedi səbrli ol..."

Şəhriyar Ağamalıyev Hacıqabul rayonunun Şəhidlər xiyabanında dəfn olunur. Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilir.

Şəhriyarın yoxluğu Nərminəyə olduqca pis təsir edir. Ağır sarsıntı, depressiya keçirir. Xeyli müddət özünə gələ bilmir. Hər şeydən, hər kəsdən, həyatın özündən küsür... Lakin bu çətin vəziyyətdən də onu elə Şəhriyar çıxarır...

- Özümü çox pis hiss etdiyim günlərin birində Şəhriyar yuxuma gəldi. Saçıma sığal çəkib dedi səbrli ol, hər şey düzələcək. Şəhid olandan sonra bircə dəfə onda Şəhriyarı yuxuda gördüm. Yəqin necə iztirab çəkməyim ona əyan olubmuş...

Şəhriyardan sonra yaşamaq mənim üçün çox çətin idi. Yoxluğu əsl əzab, dözülməz iztirab idi. Elə bil mən də onunla bərabər ölmüşdüm... Ağır depressiyaya düşmüşdüm. Heç kim gözümə görünmürdü, uşaqlarım da... Şəhriyar təkcə həyat yoldaşım, sevdiyim yox, dostum, sirdaşım, həmdəmim idi. Bundan sonra həyatda, yanımda olmayacağını dərk etdikcə ürəyim qan ağlayırdı. Amma o yuxu elə bil məni ayıltdı, güc verdi. Axı mən ona söz vermişdim ki, möhkəm olacam, dik duracam. Əmanətlərinə sahib çıxacam, qoruyacam, yarıda qalan arzularını gerçəkləşdirəcəm. Elə onun amallarını yaşatmaq naminə yaşayacam... Allahıma sonsuz təşəkkür edirəm ki, nə yaxşı övladlarımız var. Onlar Şəhriyarın mənə əmanətləri, yadigarlarıdı. Bu həyatda yaşamaq məramım, gücüm yalnız onlardı...

### "O cür qəhrəmanın həyat yoldaşı olmaq fəxrdir"

Yanvarın 26-da Şəhriyar Ağamalıyevin ikinci övladı, qızı dünyaya gəlir. Çox arzuladığı bu günü görmək, balasına istədiyi adı qoymaq ona qismət olmur. Qızlarının adını Nərminə özü qoyur - Şəhrinur, yəni Şəhriyarın nuru. Yeni doğulan körpənin zəruri xərclərinin qarşılanması üçün "Yaşat" Fondu tərəfindən anaya 1000 AZN təqdim olunub və uşağın adına 5000 manatlıq hesab açılıb. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

- Stress, həyəcan keçirdiyim üçün qızımın səhhətində bir az problemlər vardı. Amma çox şükür aradan qalxdı. Şəhriyar hələ qızı ilə görüşməyib. Qırxı çıxandan sonra Novruz bayramı ərəfəsində Şəhrinuru atasının ziyarətinə aparacam. Fevralın 28-də isə oğlumuz İmranın 1 yaşı tamam oldu. Kimin ağlına gələrdi ki, İmranın ilk doğum günündə atası yanımızda olmayacaq?! Halbuki necə planlarımız, arzularımız vardı... Çox istəyirdi uşaqları xarici dilləri bilsinlər, ali təhsil alsınlar. Paytaxtda ev almağı arzulayırdı. Çünki işi ilə əlaqədar daim kirayələrdə qalırdıq. Hazırda isə Xarici Dillər Universitetinin yataqxanasında anamgilin yanında məskunlaşmışıq. Ev şəraitimiz yoxdu. Şəhid ailəsi olaraq Bakıda evlə təmin olunsaq, şad olaram. Hazırda özüm də işsizəm.

Ümid edirəm Şəhriyarın adı da əbədiləşdirilər. Sağ olsun cənab Prezident, ölümündən sonra Şəhriyarı iki medalla təltif etdi. O, hər mükafata layiq hərbçi idi. Amma əlbəttə, nə qədər mükafat, medal olsa da, heç nə Şəhriyarı əvəz edə bilməz. Onunla nə qədər fəxr etsək, azdır. O cür qəhrəman hərbçinin həyat yoldaşı olmaq özü də bir fəxrdir. Kaş sağ qalaydı, yanımızda olaydı...

*Deyirlər, zaman bütün dərdlərin, yaraların dərmanı, məlhəmidir. Lakin elə dərin, qapanmayan yaralar var ki, illər ötsə də, tam sağalmır. Yalnız üzəri qaysaqlayır, içdən-içə isə daim qanayır, ağrıyır, sızıldayır. Sevdiyinin, şəhri yarının, ömür-gün yoldaşının, həyat dostunun yoxluğu da heç bir zaman sağalmayacaq yaradır Nərminə üçün. Amma elə bu yarayla birgə yaşamağı, bütün ağrılara, çətinliklərə rəğmən qürurlu şəhid xanımı kimi həyatını davam etdirməyi öyrənir artıq... Çünki yaşamaq üçün böyük bir amalı var - Şəhriyar Ağamalıyevin əmanətləri, nəslinin, adının davamçıları olan övladlarını onun şanına layiq, elə öz arzuladığı kimi böyüdüb, boya-başa çatdırmaq...*

***Xəyalə MURADLI, "Azərbaycan"***

# 26 fevralda dünyaya gəldi

## Xocalının işğal tarixində doğulub Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Tural Abdullayevin qəhrəmanlıq salnaməsi

...Onun şücaəti, qəhrəmanlıq salnaməsi indiki və gələcək nəsillərimiz üçün əsl vətənpərvərlik məktəbidir.



Abdullayev Tural Şakir oğlu 1990-cı il fevral ayının 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub. O, doğulduğu ildə ailəsi Xocalı şəhərinə köç edib. Xocalıda yeni tikilən evlərdə məskunlaşıblar. 2 yaşı tamam olanda erməni quldurları onun yaşadığı şəhəri yerlə-yeksan etdilər, dinc əhaliyə qarşı soyqırımı törətdilər. Xocalı soyqırımında Turalın atasının xalası oğlunun da ailəsi tamamilə məhv edilmişdi. Kiçik yaşlarından düşmənə nifrət hissi bəsləyən Tural böyüyəndə düşməndən qisas almağı qarşısına məqsəd qoymuşdu. Onun taleyinə yazılanlardan biri də budur ki, doğum gününü qeyd edə bilməyib. Çünki iki yaşında olarkən doğum günü 613 günahsız xocalılının şəhid olduğu soyqırımı gününə düşüb.

Tural Abdullayev hərbi xidməti 2008-ci ildə Salyanda Xüsusi Təyinatlı Qüvvələrdə keçib. 2010-cu ildən isə Zaqatalada DİN XTQ-də əməliyyat qrupunda çalışıb. 12 il Xüsusi Təyinatlı Qüvvələrdə Vətənə qüsursuz xidmət edən Tural medallar və fəxri fərmanlarla təltif edilib. 2008-ci ildə nümunəvi xidmətinə görə hərbi hissə komandirinin əmri ilə baş çavuş Tural Abdullayev 3-cü dərəcəli döş nişanı ilə təltif edilib. 2013-cü ildə Azərbaycan Respublikasının "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 20 illiyi" yubiley, 2018-ci ilin dekabrında AVMVİB-nin əsasnaməsi ilə təsdiq edilmiş "Milli Ordu-100", 2020-ci ilin iyun ayında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif edilib.

Tural həmişə qorxmazlığı, vətənpərvərliyi ilə seçilib. O, hələ uşaq yaşlarından atasına "Xocalının qisasını almaq lazımdır" deyərdi. Üçrəngli bayrağımızı daim özü ilə aparan Tural Vətənə olan borcu qaytarmağı həyatının amalı hesab edib. Vətən müharibəsi başlamamışdan əvvəl əfsanəvi "Yaşma" xüsusi təyinatlıları sırasında təlimlərdə iştirak etmişdir. Turalın gözlədiyi qisas vaxtı artıq yetişmişdi.

"Boz qurd" ləqəbi ilə tanınan döyüşçü qorxmadan ən təhlükəli döyüşlərə atıldı. Şərəfli döyüş yolu, şücaəti, Vətənə sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Öz canı qədər sevdiyi bayraq tabutuna, məzarı üstünə sərildi. Tural ölməzliyi ilə Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu.

Şəhidimizin atası Şakir kişi Tural haqqında belə deyir: "Tural əsgərlikdən məzuniyyətə gələndə telefonla danışdığını eşitdim. Eşitdim deyirdi ki, "vallah mənim bəxtim yoxdur. Mən məzuniyyətə gəlim, yoldaşlarım isə hərbi əməliyyatda iştirak etsinlər. Orada olsaydım, bəlkə mən də düşmən öldürərdim..." Tural döyüş əməliyyatı keçirilən zaman məzuniyyətdə olduğu üçün çox təəssüf edirdi. Vətənpərvərliyi ilə seçilən Tural sonradan DİN XTQ-də ən çətin əməliyyatlarda iştirak etdi. Bu barədə çoxlarının xatirəsi var...

Tural Abdullayev Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyinin alınmasında və Kəlbəcər tərəfdə keçirilən döyüş əməliyyatlarında iştirak etdi. Qorxmaz Vətən oğlu öz cəsarəti, hünəri ilə düşmənə ağır zərbələr vurdu. Qəhrəmancasına döyüşərək sentyabrın 30-da əbədiyyətə qovuşdu, xalqımıza qələbə sevinci bəxş edən qeyrətli oğullarımızdan biri kimi tanındı.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, baş çavuş Abdullayev Tural Şakir oğlu ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edilmişdir. Qəhrəman şəhidimizin nümunəvi xidmətlərinə görə verilən qiymət yalnız bu deyil. O, dövlət başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə də təltif edilib.

Ailə qurmağa vaxtı olmayan şəhid igidimizin müqəddəs məzarı Bakı şəhəri Xəzər rayonunun Binə qəsəbəsinin Sovxoz qəbiristanlığındadır. Yeri behişt olsun!

***Qalib BƏYMƏMMƏDOĞLU, "Xocalının səsi" qəzetinin redaktoru***

# Şəhidin cənnətdəki ilk doğum günü

Azərbaycanın Vətən müharibəsində parlaq qələbə qazanmasında, torpaqlarımızın işğaldan azad olunmasında, işğalçı düşmənin torpaqlarımızdan qovulmasında qəhrəmancasına şəhid olan igid oğullarımızdan biri də Tovuzun Aşağı Öysüzlü kənd sakini Fikrət Akif oğlu Zeynallıdır. Yaşasaydı 26 yaşı olacaqdı. Amma Fikrət şəhidliyi ilə Vətən göylərinə ucaldı və bu ucalıqla tovuzlulara şərəf gətirdi.



Fikrət Zeynallı 1995-ci ildə dünyaya göz açmışdı. Atası riyaziyyatçı olduğundan ona bu elmin sirlərini mükəmməl öyrətmişdi. Yəqin ki, bu səbəbdən Fikrətin hələ uşaqlıqdan arzusu riyaziyyatçı olmaq idi. Hətta dəfələrlə riyaziyyat olimpiadalarında birinci yerə çıxmışdı. Bu istedadı onu 2012-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə gətirdi. Müəllim olmaq, şagirdlərə elm, təhsil vermək istəyirdi. Təhsil illərində də nümunə göstərən Fikrət nəinki fakültədə, eləcə də universitetdə öz fəallığı ilə seçilirdi. Dərs əlaçısı olmaqla yanaşı, ictimai işlərdə də nümunə göstərən Fikrət 2016-cı ildə ali təhsilini başa vurub həqiqi hərbi xidmətə yollandı.

2020-ci ilin sentyabr ayında erməni silahlı qüvvələrinin torpaqlarımıza hücum edərək yenidən təxribata əl atması Fikrətə də rahatlıq vermədi. O, ərizə ilə müraciət edərək könüllü olaraq təlim məşq toplanışına qatıldı. Bir müddətdən sonra Qarabağ uğrunda gedən döyüşlərə qatıldı. Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə şücaət göstərdi. Döyüş yoldaşlarının dediklərinə görə, Fikrət ölümdən qətiyyən qorxmurdu. Yeri gələndə yoldaşlarına söyləyirdi ki, insan vətənsiz heç kimdir. "Bizim vətənimizin isə bir qismi düşmən əlindədir. Əgər onu geri ala bilməsək, bu torpağın üstündə gəzmək bizə haram olar". Elə sonuncu dəfə atası ilə telefonla danışanda da sözünü həmin kəlmələrlə bitirmişdi.

Fikrətin atası Akif müəllim oğlunun əsl vətənpərvər və doğma yurduna bağlı olmasından ağızdolusu danışır. Deyir ki, birinci dəfə döyüşə girəndə məndən də, anasından da halallıq aldı: "Sonra qardaşı və bacısı ilə danışdı. Onların etimadını doğruldacağını söylədi". Anası Qızxanım bacımız da oğlu ilə fəxr etdiyini bildirdi: "Bir neçə dəfə telefonla danışdı. Hər dəfə də deyirdi ki, şəhidlərimizin qanını almamış geri qayıtmayacaq".

Noyabrın 9-da Xocavənd istiqamətində gedən döyüş zamanı Fikrət və döyüşçü yoldaşları mühasirəyə düşürlər. Özünü və dostlarını xilas etmək üçün döyüşə atılan Fikrət şəhid olur. Ölümündən sonra dövlət başçısının sərəncamı ilə o, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilir.

Fevralın 23-də Fikrətin 26 yaşı tamam olurdu. Evdə adına qazan da asmışdılar. Atası otaqlardan birinin qapısını açıb bizi içəri dəvət etdi. Burada Fikrətin uğurlarını əks etdirən şəkillərdən ibarət guşə yaradılmışdı. Akif müəllim bir-bir onları göstərir, fəxrlə oğlunun nailiyyətləri barədə məlumat verirdi. Bizə isə ancaq şəhidin ata-anasına təsəlli vermək qalırdı.

Allah bütün şəhidlərə rəhmət eləsin!

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# “AZAL” pandemiya səbəbindən ləğv edilən reyslərin aviabiletlərinin yenidən təxsis edilməsi şərtlərini açıqladı

Çoxsaylı sorğuları nəzərə alaraq Azərbaycanın milli aviadaşıyıcısı COVID-19 pandemiyası səbəbindən ləğv edilən reyslərin aviabiletlərinin yenidən təxsis edilməsi şərtləri barədə məlumat verir.

“Azərbaycan Hava Yolları” və “Buta Airways” aviaşirkətlərinin ləğv edilən reyslərinin biletlərini alan sərnişinlərə həmin biletləri aviadaşıyıcıların hazırda yerinə yetirilən xüsusi reyslərinə yenidən təxsis etməyə icazə verilir.

Belə ki, “AZAL” sərnişinlərinə, uçuş tarixini dəyişməklə, lakin əvvəlki hərəkət marşrutunu saxlamaqla, bileti ödənişsiz yenidən rəsmiləşdirmək təklif olunur. Tariflər arasındakı fərqi ödəyərək sərnişinlər aviaşirkətin bütün hazırkı istiqamətləri üzrə uçuş marşrutunu dəyişə bilərlər.

COVID-19 pandemiyası səbəbindən “Buta Airways” aviaşirkətinin ləğv edilən reyslərinin biletlərini alan sərnişinlər tariflər arasındakı fərqi ödəyərək, həmçinin həmin biletləri “AZAL”ın xüsusi reyslərinə yenidən rəsmiləşdirə bilərlər.

“Buta Airways” aviaşirkətinin ləğv edilən reyslərinin biletlərini alan sərnişinlər həmin biletləri əlavə ödəniş etmədən, aşağıbüdcəli aviaşirkətin hazırkı xüsusi reyslərinə (istənilən istiqamət) yenidən təxsis edə bilərlər.

“AZAL” və “Buta Airways” sərnişinləri biletlərin dəyişdirilməsi üçün müvafiq olaraq callcenter@azal.az və callcenter@butaairways.az ünvanları vasitəsilə, həmçinin müvafiq olaraq https://help.azal.az/hc/az/requests/new və https://help.butaairways.az/hc/az/requests/new linkləri ilə geri əlaqə forması vasitəsilə aviaşirkətlərin çağrı mərkəzlərinə və ya aviabiletlərin alındığı yer üzrə müraciət edə bilərlər.

Hər iki aviaşirkətin sərnişinləri yalnız bir dəfə aviabileti ödənişsiz yenidən təxsis edə bilər.

Aviabiletin dəyərinin qaytarılmasına alternativ olaraq vauçer formasında sənəd təklif olunur. Həmin vauçeri ilkin aviabiletin əldə edildiyi tarixdən iki il ərzində istifadə etmək mümkündür.

Vauçer “AZAL” və “Buta Airways” aviaşirkətlərinin bütün istiqamətləri üzrə biletlərin alınması üçün etibarlıdır.

***“Azərbaycan”***

# “Azərişıq” ASC “Ağıllı şəbəkələr” konsepsiyasına daha bir yenilik tətbiq edir

“Azərişıq” ASC-nin “Ağıllı şəbəkələr” konsepsiyasının həyata keçirilməsində daha bir yenilik. Kommunal sferada ilk dəfə xüsusi təyinatlı uçuş aparatları “Azərişıq” ASC tərəfindən tətbiq edilir.

“Azərişıq” ASC-nin Mətbuat xidmətinin məlumatına görə, “Ağıllı şəbəkələr” konsepsiyası tamamilə müasir və innovativ texnologiyaların istifadəsi üzərində qurulub. Bu konsepsiya çərçivəsində reallaşdırılmış müasir tipli mühafizəli və izolyasiyalı yüksəkgərginlikli xətlərinin, 3D-mobil xəritəçilik sisteminin, məsafədən Optik portla elektrik sayğaclarının oxunması və mövcud idarəetmə platformasına inteqrasiya işləri uğurla davam etdirilir.

Rəqəmsal idarəetməyə keçid proqramı istiqamətində aparılan genişmiqyaslı tədbirlər sırasına xüsusi təyinatlı uçuş aparatları ilə Hava Elektrik Veriliş Xətlərinə (HEVX) kompleks və lokal baxış keçirilməsinin təşkili də əlavə edilmək üzrədir. Belə ki, ASC-nin Tədris və İnnovasiyalar Mərkəzində “Şəbəkə qüsurlarının aşkar edilməsində yüksək texnologiyaların tətbiqi” üzrə təlim-tədris kursuna start verilib. Bu tip pilotsuz uçuş aparatları sadə foto-video çəkilişləri üçün nəzərdə tutulmuş dronlardan xeyli fərqlənir. Bu səbəbdən də onlara xüsusi təyinatlı texniki uçuş aparatları adı verilib. Belə kameralar 360 dərəcəlik panorama, infraqırmızı spektrdə və temperatur göstəricilərinin vizuallaşdırılması rejimlərində çəkiliş apara bilir. Bundan əlavə, xüsusi yaxınlaşdırma (zoom) funksiyası 25-30 m məsafədən kiçik ölçülü zədələnmələri belə müəyyən etməyə imkan verir.

Ənənəvi üsulla xətlərə texniki baxışın keçirilməsi uzunmüddətli və mürəkkəb dispetçer əməliyyatlarının aparılmasını tələb edən bir prosesdir. Burada əlavə işçi heyətin, maşın-mexanizmlərin, xüsusi qaldırıcı texnikanın cəlb edilməsi də qaçılmazdır. Nəticədə elektrik enerjisi verilişində uzunmüddətli fasilələr yaranır, abonent məmnunluğu və xidmət keyfiyyəti göstəriciləri pisləşir. Müasir texnologiyaların tətbiqi ilə bütün bu problemlər aradan qaldırılır, yüksəkdəqiqlikli vizual qeydiyyat aparılır, virtual arxivləşdirilir, ən əsası - abonentlərin elektrik enerjisi verilişində fasilələr yaranmır.

Bu növ xüsusi təyinatlı texniki uçuş aparatlarının işğaldan azad olunmuş ərazilərdə qurulacaq “Ağıllı şəbəkələr”də təşkiledici baza elementi kimi istifadə edilməsi nəzərdə tutulub.

## Azərbaycan Respublikasının Milli Məclisi 2021-ci il üçün xərclər smetasının 222441 - “Əsas fondlara xidmət haqqı xərcləri” yarımmaddəsi üzrə illik xidmətlərin satın alınması məqsədilə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq təkliflər sorğusu keçirir

Təkliflər sorğusu 7 (yeddi) LOT üzrə keçiriləcəkdir:

**LOT-1:** Qazanxana və nasosxana avadanlıqlarına illik texniki xidmət;
**LOT-2:** Mərkəzi qapının buraxılış sisteminə (turniket) illik texniki xidmət;
**LOT-3:** Mərkəzləşdirilmiş kondisioner, ventilyasiya və istilik sistemlərinə illik texniki xidmət;
**LOT-4:** “Yanğın”, “Mühafizə” siqnalizasiya sistemlərinə, “tüstüuzaqlaşdırma və idarəetmə sisteminə” və “videonəzarət və səsyayma” sistemlərinə illik texniki xidmət;
**LOT-5:** Darvaza avtomatikası və qapı aksesuarlarına illik texniki xidmət;
**LOT-6:** Texniki avadanlıqların (printer, skaner) texniki xidməti, təmizlənməsi, təmiri və ehtiyat hissələrinin və çoxişlənən malların dəyişdirilməsi və digər illik xidmətlərin alınması;
**LOT-7:** Sərnişin liftlərinə illik texniki xidmət.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

1. Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət.
2. Təklifin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir.
3. Təklifin təminatı (bank zəmanəti) təklifin ümumi qiymətinin 1 (bir) faizi məbləğində olmaqla təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır.
4. İddiaçılar haqqında tələb olunan sənədlər aşağıdakılardır:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması - potensial imkanları haqqında məlumat;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olması.

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusunun Əsas şərtlər toplusunu müsabiqədə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, Parlament prospekti, 1 ünvanından əldə edə bilərlər.

İştirakçılar təklifləri möhürlənmiş qaydada ikiqat zərflərdə, 11 mart 2021-ci il saat 18:00-a qədər Tender komissiyasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri 12 mart 2021-ci il saat 16.00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Möhbalı Cavid
Əlaqə telefonu: (012) 492-31-26
E-poct ünvanı : tender@meclis.gov.az Ünvan: Bakı şəhəri, Səbail rayonu, Parlament pr.,1, Milli Məclis

***Tender komissiyası***

## Siyəzən Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixə kimidir. Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz. Əlaqələndirici şəxs: Məmmədli Hüseyn

Ünvan: Siyəzən şəhəri, D.Turabov küçəsi. E-mail: siyezenssi@mst.gov.az
Tel.: (02330)4-12-93

Tender 4 (dörd) LOT üzrə keçiriləcək.

LOT-2: Maşın və mexanizmlər üçün ehtiyat hissələrinin və illik servis xidmətinin satın alınması.
LOT-3: Nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması.
LOT-4: Şüşə lifli borular və onların laminasiya işlərinin satın alınması.
LOT-5: Cari təmir işləri üçün tikinti materiallarının satın alınması.

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-2 üzrə 60 (altımış) manat, LOT-3 üzrə 40 (qırx) manat, LOT-4 üzrə 70 (yetmiş) manat, LOT- 5 üzrə 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Siyəzən Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ07CTRE00000000000002356901**
**VÖEN: 7100019601**
**Bank: DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;
4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış; Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 31.03.2021-ci il saat 11:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər. Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 08.04.2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 09.04.2021-ci il saat 11:00-da elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## “Azərişıq” ASC müxtəlif növ ağır avto mexanizmlərin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar:

**LOT-1: Müxtəlif növ ağır avto mexanizmlərin satın alınması.**
**İştirak haqqı - 1 200 manat**
**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab : AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Rövşən Müsrüt (telefon: 440-39-93 daxili (94-03))
rovshan.musrut@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi).(Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tələb olunan mallar üzrə mənşə və uyğunluq sertifikatları (Müvafiq mallar üzrə rəsmi partnyor, distribüter və ya istehsalçının rəsmi təmsilçisi olduğunu təsdiq edən sertifikat və ya məktub (tender təklifi ilə bərabər təqdim olunsun));*
